www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 yanvar 2016-cı il Cümə № 4 (6325) Qiymətı 50 qəpik

**Xəbər**

## "Qızıl Məryəm"i öldürən qızı imiş

yazısı səh.4-də

**Gündəm**

### Obamanın Əliyevə qəfil dəvətinin siyasi açması



Bakıya qarşı sərt sanksiyaları nəzərdə tutan qanun layihəsinin Konqresin müzakirəsinə təqdim edilməsi fonunda ABŞ prezidentinin məlum dəvəti maraqla qarşılanıb

yazısı səh.8-də

### Böhranın dəhşətli üzü: ağır cinayətlər və intiharlar çoxalır

yazısı səh.4-də

### Nardaran Ağsaqqallar Şurasının sədri dövlətə xəyanətdə ittiham olundu

yazısı səh.2-də

### Putin Donbası qaytarırmı?

yazısı səh.12-də

### ABŞ-a qarşı sanksiyalar layihəsi Milli Məclisin Aparatında

yazısı səh.7-də

### AXCP adı uğrunda məhkəmə çəkişməsi uzun sürəcək

yazısı səh.9-da

### Ekspertlər Neft Fondunun əmlak almasını səhv qərar hesab edir

yazısı səh.14-də

### Türkiyə Azərbaycan vətəndaşlarına viza rejimi tətbiq edəcək

yazısı səh.6-da

### Borçalıda vəhhabizm təhlükəsi

yazısı səh.12-də

### Ailəsi MTN polkovnikinin özünü öldürməsinə inanmır

yazısı səh.4-də

### Aktyorlar direktorun işdən çıxarılmasını bayram edir

yazısı səh.13-də

### ABŞ Konqresində Qarabağ müzakirələri

yazısı səh.11-də

## "Üçüncü devalvasiyaya hazır olun" anonsu

# ELMAN RÜSTƏMOVUN MANAT OYUNU - YENƏ MAT OLACAĞIQ...

Neftin qiymətinin yenidən ucuzlaşması dərhal Bakıda da öz təsirini göstərdi; manat yenidən dəyərdən düşə bilər; vətəndaşlara dollar satışına limit qoyuldu; Şahmat Federasiyasına da rəhbərlik edən Mərkəzi Bank sədri üçüncü devalvasiyanı bu dəfə "dollar ajiotajı" ilə ört-basdır etmək niyyətindədir...




yazısı səh.5-də

## İrəvan və Tehranın Bakı əleyhinə gizli oyunları: iki paytaxt TANAP-a qarşı

Bu avantürist planları, nə qədər qəribə də olsa, Rusiya poza bilər - ancaq öz maraqları çərçivəsində; Gürcüstanın Kremldən siyasi asılılığı güclənəcək, əgər...

yazısı səh.5-də



### Hakimiyyət Rəsul Quliyevin Azərbaycana qayıtmaq istəməsinə "yox" deyib

yazısı səh.9-da



### Nemət Pənahlının qızı "Yeni Müsavat"a danışdı

yazısı səh.10-da



*Əli Məsimli:*

### "Süni qiymət artımına görə Azərbaycan ailələri ildə 180 milyon manat itirirlər"

yazısı səh.7-də



## Naxçıvan-Bakı marşrutunda gediş haqqı artırıldı: sərnişinlər etiraz edir

**Naxçıvan-Bakı marşrutu üzrə işləyən avtobuslarda gediş haqqı bahalaşıb. Aznews.az-ın məlumatına görə, Naxçıvana İran ərazisindən gedən avtobusların gediş haqqı əvvəlki qiymətə nisbətən qalxıb. Bundan sonra muxtar respublikaya 16 manata yox, 26 manata getmək mümkün olacaq.**

Avtobusların qiymətlərinin qaldırılması əhali arasında narazılığa səbəb olub. Ötən gün Naxçıvana getmək istəyən sərnişinlərdən birinin sayta verdiyi məlumata görə, sərnişinlərlə avtobus sürücüləri arasında ciddi narazılıq yaranıb. Sərnişinlər belə bir vaxtda gediş haqqının artırılmasına etiraz ediblər. Lakin etirazlara baxmayaraq, sürücülər qiymətlərdə güzəşt etməyiblər.

Bəzi məlumatlara görə isə qiymətlər işbazların təklifi ilə qeyri-rəsmi şəkildə qaldırılıb.

Məlumat üçün bildirək ki, Naxçıvan-Bakı reysi üzrə işləyən avtobuslar İran ərazisindən keçməklə, 12-13 saat ərzində ümumilikdə 503 kilometr məsafə qət etməli olurlar.

Xatırladaq ki, Naxçıvandan Bakıya avtobusla sərnişin daşınmasını 3 yerli və 1 İran şirkəti həyata keçirir. Bundan əlavə, muxtar respublika sakinləri istisna olmaqla, Azərbaycanın digər bölgələrində yaşayan sakinlər Naxçıvana getmək üçün İran tərəfinə tranzit vizası üçün pul ödəməli olurlar.

## Naxçıvan Dövlət Təhlükəsizliyi Xidmətinə rəis müavini təyin edildi

**Naxçıvan Muxtar Respublikasının (MR) Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini təyin edilib. APA-nın məlumatına görə, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun sərəncamı ilə Fariz Nəriman oğlu Bağırov Naxçıvan MR Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini təyin edilib.**

Qeyd edək ki, Vasif Talıbovun 18 dekabr 2015-ci il tarixli fərmanı ilə Naxçıvan MR Milli Təhlükəsizlik Nazirliyi əsasında Naxçıvan MR Dövlət Təhlükəsizlik Xidməti yaradılıb və 18 dekabr 2015-ci il tarixli sərəncamı ilə Fazil Ələkbərov Naxçıvan MR Dövlət Miqrasiya Xidmətinin rəisi vəzifəsindən azad edilərək Dövlət Təhlükəsizlik Xidmətinin rəisi təyin edilib.

Qeyd edək ki, Naxçıvan MR milli təhlükəsizlik naziri, general-mayor Vəli Ələsgərov olub.

## Təbriz və Məşhəddən Bakıya aviareys açıla bilər

**İran Təbriz-Bakı-Təbriz və Məşəd-Bakı-Məşəd aviareyslərinin İran aviaşirkətləri tərəfindən yerinə yetirilməsi üçün Azərbaycana müraciət edib. Bu barədə "Azərbaycan Hava Yolları" QSC (AZAL) prezidentinin ictimaiyyətlə əlaqələr üzrə köməkçisi Paşa Kəsəmənki APA-nın sorğusuna cavab olaraq bildirib.**

"Nəzərinizə çatdırmaq istəyirik ki, İran tərəfi Təbriz-Bakı-Təbriz və Məşəd-Bakı-Məşəd aviareyslərinin İran aviaşirkətləri tərəfindən yerinə yetirilməsi üçün Azərbaycana müraciət edib. Azərbaycan Dövlət Mülki Aviasiya Administrasiyası sözügedən məsələ ilə bağlı razılıq verib. Qeyd etmək istəyirik ki, Dövlət Mülki Aviasiya Administrasiyasına İran tərəfdən reyslərin başlanması ilə bağlı hər hansı yeni bir məlumat daxil olmayıb. Onu da bildirmək istəyirik ki, hazırda bu məsələ "Azərbaycan Hava Yolları" sərnişin şirkətinin gündəliyində deyil", - deyə məlumatda bildirilib.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Mesavat" - 0.40 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Gədəbəyin ucqarları qar içində batır, icra başçının səsi Monteneqrodan gəlir

**İcra başçılarının tətil günlərində xaricdəki kurortlara üz tutmaları haqda yazıya reaksiyalar gəlməkdədir. Ən müxtəlif mənbələrdən redaksiyamıza icra başçlarının əksərinin tətil günlərində çalışdıqları rayonlarda olmadıqları, xaricə istirahətə getdikləri barədə xəbərlər daxil olur. Bu xəbərlərin birində Gədəbəyin icra başçısı Ramiz Yediyarovdan söhbət açılır.**



Ramiz Yediyarov

"Ramiz Yeniyarovu 2016-cı ildə rayonda görən olmayıb. Keçən ildən rayondan gedəndir. O, Karlovı Varını bəyənmir, Montoneqroya gedir" - deyə redaksiyamızla əlaqə saxlayan rayon sakinlərindən biri bildirib. Onun sözlərindən bəlli olub ki, Gədəbəy rayonuna ötən ilin son günlərində yağan qar rayon mərkəzi ilə ucqar kəndlər arasında əlaqəni kəsib: "Elektrik enerjisi ilə kəndlər 4-5 gündür ki, təmin olunmur. Yollar bağlıdır. Qardan təmizlənmir. İcra başçısı yoxdur. Dekabrın əvvəlində Qubada qar yağdı, 4 kəndin yolunu bağladı. Səhəri günü ağır texnikanı çıxarıb yolu açdılar. Bunu televizorda göstərdilər. Gədəbəydə isə gözləyirlər ki, gün çıxar, qar əriyər. Ucqarlarda yaşayan, rayon mərkəzi ilə əlaqəsi kəsilən kəndlərin camaatı Allahın ümidinə qalıb. Ramiz Yediyarovun rayonda olması elə də fərq eləmir. Gəlsə, guya yol təmizlətdirəcək?"

Qeyd edək ki, ötən sayımızda "İcra başçıları ölkəni kütləvi şəkildə tərk edib - siyahı" sərlövhəli yazı dərc etmişdik. Yazıda ölkədə baş verən devalvasiyanın yaratdığı gərginlik fonunda, əhalinin gündəlik qida tələbatlarını ödəmək üçün çarpışdığı bir vaxtda məmurların, xüsusən də icra başçılarının Avropanın bahalı kurortlarında dincəlmələrindən söhbət açılırdı. Bildirilirdi ki, İmişlinin icra başçısı Vilyam Hacıyev, Salyanın icra başçısı Tahir Kərimov, Gəncənin icra başçısı Elmar Vəliyev, Binəqədinin icra başçısı Xaləddin İsgəndərov, Masallının icra başçısı Rafil Hüseynov, Şəmkirin icra başçısı Alimpaşa Məmmədov, Xətainin icra başçısı Razim Məmmədov, Kürdəmirin icra başçısı Ceyhun Cəfərov ölkə iqtisadi fəlakətlə üz-üzə olduğu bir vaxtda, ölkə prezidentinin belə Yeni il tətilini ölkədə keçirdiyinə rəğmən tətili xalqla yox, xaricdə keçiriblər.

❑ **E.HÜSEYNOV**



## Dövlət Təhlükəsizliyi Xidməti Natiq Kərimovun həbsi barədə məlumat yaydı

**Dövlət Təhlükəsizliyi Xidmətinin həyata keçirdiyi istintaq-əməliyyat tədbirlərinin nəticələrinə əsasən, Azərbaycan vətəndaşı, Bakı şəhəri, Sabunçu rayonu, Nardaran qəsəbə sakini Kərimov Natiq Əlövsət oğlunun xarici xüsusi xidmət orqanı əməkdaşları tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək uzun müddət həmin orqan tərəfindən verilən tapşırıqları yerinə yetirməsi, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi zərərinə casusluq edərək dövlətə xəyanət etməsinə dair əsaslı şübhələr müəyyən edilib.**

Dövlət Təhlükəsizliyi Xidmətinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, bununla əlaqədar N. Kərimov Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq Baş İdarəsi tərəfindən aparılan cinayət işi üzrə şübhəli şəxs qismində tutularaq 7 yanvar 2016-cı il tarixdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilmiş, məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

Hazırda istintaq-əməliyyat tədbirləri davam etdirilir.



## Vergi borcu olanların bank hesabı açması yasaqlanıb

**"Vergi borcu olanların bank hesabı açmasına qadağa qoyulub". Bu barədə moderator.az-ı özəl mənbə məlumatlandırıb. Mənbənin sözlərinə görə, vergi orqanlarına hətta bir qəpik belə olsun borcu olan şəxsin VÖİN əsaslı bank hesabı açması yasaqlanıb.**

Belə ki, VÖİN əsaslı bank hesabı açmaq istəyən şəxs qanunvericiliyin tələbinə uyğun olaraq öncə vergi orqanına müraciət etməli və seçdiyi bankın adını, habelə hansı valyuta ilə hesab açmaq istədiyini bildirməlidir. Belə olan halda öncə vətəndaşın vergi borcunun olub-olmadığını müəyyənləşdirən vergi əməkdaşı, borcu olan şəxslə bağlı əməliyyat aparmaqdan imtina edir. Vətəndaşa bildirilir ki, onun borcu olduğu üçün sistem onun üzünə "bağlıdır" və yalnız bu borc ödəniləndən sonra açıla bilər. Beləliklə də vətəndaş vergi borcunu ödəyənə qədər bank xidmətindən yararlana bilmir.

Mənbənin sözlərinə görə, hazırda yüzlərlə şəxs oxşar problemlə üzləşib və bank əməliyyatlarını təxirə salmaq məcburiyyətində qalıb.

## Azərbaycan İnterpola axtarışa verdiyi şəxslərin sayına görə neçəncidir?

**Beynəlxalq Cinayət Polisi Təşkilatı (İnterpol) 2015-ci ilin yekunları olaraq dünyada axtarılan cinayətkarlarla bağlı yeni statistika dərc edib.**

Modern.az saytı xəbər verir ki, bütün dünyada 18490 şəxs İnterpol xətti ilə axtarışa verilib. Onlardan 318-i Azərbaycanın beynəlxalq axtarışa verdiyi cinayətkarlardır.

Bu göstərici ilə Azərbaycan regionda Rusiyadan sonra ikinci pilləni tutur. Rusiyanın axtarışa verdiyi cinayətkarların sayı 1605 nəfər, İranınkı 12 və Gürcüstanınkı 88 nəfərdir.

## Fizika İnstitutunun Elmi-İstehsalat Birliyi ləğv olunub

**Azərbaycan Milli Elmlər Akademiyasının Fizika İnstitutunun SELEN Elmi-İstehsalat Birliyi ləğv olunub.**

"APA-Economics"in xəbərinə görə, bununla bağlı Nazirlər Kabineti ötən il dekabrın 15-də müvafiq qərar qəbul edib.

Kreditorlar 2 ay ərzində tələblərini Bakı şəhəri, Əhmədli şossesi, 622-ci küçə, ev 9 ünvanına bildirə bilərlər.

## Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb

**NATO-nun Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 42 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 94 nəfərdən ibarət hərbi qulluqçusu, 2 hərbi həkimi və 2 mühəndis-istehkam ixtisası üzrə zabiti Əfqanıstandakı missiyada iştirak edir.

## Qar yağacaq

**Bakıda və Abşeron yarımadasında sabah hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə zəif duman olacağı gözlənilir. Axşam yarımadanın bəzi yerlərində çiskin olacaq. Mülayim cənub-qərb küləyi əsəcək, arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, havanın temperaturu Abşeron yarımadasında gecə 0-4 isti, gündüz 7-12 dərəcə isti, Bakıda gecə 2-4, gündüz 8-10 dərəcə isti olacaq.

Azərbaycan rayonlarında sabah hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Lakin axşam bəzi qərb rayonlarında sulu qar, qar yağacağı ehtimal olunur. Qərb küləyi əsəcək, arabir güclənəcək.

Havanın temperaturu gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, yüksək dağlıq ərazilərdə 9-14 dərəcə şaxta, gündüz 2-7 dərəcə isti olacaq.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 4 (6325) 8 yanvar 2016



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**“Gallup” beynəlxalq analitik şirkətinin keçirdiyi sorğuda Azərbaycan 81 faizlə dünya üzrə ən xoşbəxt ölkələr sırasında dördüncü yeri tutub. Azərbaycan əhalisinin 33 faizi 2016-cı ilə ümidlərlə bağlı müsbət cavab verib. 19 faiz pessimist, 23 faiz neytral yanaşıb, 25 faiz isə sualı cavablandırmayıb. Azərbaycan əhalisinin 36 faizi 2016-cı ildən yaxşı iqtisadi göstəricilər gözləyir. Sorğuda iştirak edənlərdən 21 faizi pessimist, 11 faiz neytral cavab verib. 32 faiz isə cavab verməyib.**

# “Gallup”un gopu: xoşbəxtlik sorğusu aranı qatıb



**Əhməd Qəşəmoğlu:** “Xarici ölkələrin keçirdiyi sosial sorğulara ciddi baxmıram”



**Fəzail Ağamalı:** “Azərbaycan dünyanın ən xoşbəxt ölkələrindən biridir”



**Sərdar Cəlaloğlu:** “Azərbaycanda elə bir komitə sədri görmüsünüz ki, onun gözündə xoşbəxtlik hiss edilsin?!”

Təbii ki, bu nəticə bir çox insanlarda ironiyaya səbəb olub. Hazırkı vəziyyətdə Azərbaycanın xoşbəxt ölkələrdən olması insanlarda bu sorğunun düzgün keçirilməməsi və ya sorğuya cavab verən respondentlərin səmimi olmadıqları düşüncəsini yaradıb. Hətta Azərbaycanın xoşbəxt ölkələr sırasında yalnız axırdan dördüncü ola biləcəyini deyənlər də kifayət qədərdir.

Axı torpaqları işğal olunan, devalvasiyanın, bahalaşmanın baş alıb getdiyi bir ölkədə necə xoşbəxt olmaq olar?!

**Sosioloq Əhməd Qəşəmoğlu xarici ölkələrin Azərbaycanda keçirdiyi sosial sorğulara ciddi baxmadığını bildirdi:** “Ölkəmizdə xaricilərin gəlib apardığı sosioloji sorğular heyf ki, arzuolunan səviyyədə deyil. ”Gallup" gəlib Bakıda küçələrdə sorğu keçirməyib. Orada müəyyən bir qrup insanları yığırlar və sorğu keçirirlər. “Gallup”un öz metodları ilə Azərbaycanda sorğu keçirməsi metodik cəhətdən düzgün deyil. Azərbaycanın öz spesifikası var. Ona görə də bu başdan deyim ki, xarici təşkilatların Azərbaycanda keçirdiyi sosioloji sorğulara mən heç vaxt ciddi baxmamışam. Xoşbəxtliyin öz kriteriyaları, meyarları olmalıdır. “Gallup”un sorğusunu aparanlar özləri əvvəlcə desin ki, onlar hansı meyarlara uyğun olan vəziyyəti xoşbəxtlik hesab edirlər. Çünki hər kəs xoşbəxtliyi başqa cür başa düşür və xoşbəxtliyin öz tərifləri var. Ölkədəki indiki vəziyyəti nəzərə alsaq, əhali özünü acınacaqlı vəziyyətdə hesab edir ki, bu da təbiidir".

**Sosioloq bildirdi ki, ölkədə elə tədbirlər görülməlidir ki, insanların sabaha ümidi artsın və özlərini xoşbəxt hiss edə bilsinlər:** “Əhali o vaxt pessimizmə qapanır ki, sabaha ümidi azalır. Ona görə də respublikada elə tədbirlər görmək, islahatlar aparmaq lazımdır ki, əhali inansın ki, onun vəziyyəti müvəqqəti olaraq çətindir və yaxşılaşacaq. Bu istiqamətdə istər iqtisadi sahədə tədbirlər həyata keçirilməli, istərsə də ümumi ictimai rəyin formalaşmasında ovqat yaratmaqda ölkənin ciddi intellektual potensialı hərəkətə gətirilməlidir”.

**Deputat Fəzail Ağamalı Azərbaycanın sorğuda dördüncü yer tutmasının təbii olduğunu dedi:** “Devalvasiya təkcə Azərbaycanda deyil, dünyada gedir. Fərqli durum yalnız ABŞ-da və bir az da Avropanın bəzi ölkələrindədir. Digər ölkələrdə maliyyə böhranının ağır fəsadları görünməkdədir. Xüsusi olaraq neftlə bağlı olan ölkələrdə bu, daha qabarıq şəkildə özünü göstərir. Azərbaycan da bu proseslərdən kənarda deyil. Çünki Azərbaycan dünyanın bir parçasıdır. Azərbaycanda vaxtilə iqtisadiyyatın şaxələnməsi ilə bağlı ölkə prezidentlərinin çağırışları və onun iradəsinə söykənmiş olan iqtisadi siyasət özünün bəhrəsini verir. 2008-ci ildə dünya iqtisadi böhranından Azərbaycan böyük uğurla çıxa bildi. Mən əminəm ki, indi də Azərbaycan yaranmış olan qlobal xarakter daşıyan bu böhrandan az və ya çox dərəcədə sığortalana biləcək”.

**F.Ağamalı Azərbaycanın ümumilikdə xoşbəxt və firavan bir ölkə olduğunu dedi:** ““Gallup”un sorğusu bundan əvvəlki dövrləri və indiki zamanı özündə birləşdirdiyinə görə Azərbaycan sözün həqiqi mənasında dünyanın ən xoşbəxt ölkələrindən biridir. Söhbət təkcə maliyyə, manatın devalvasiyası ilə bağlı deyil. Bildiyiniz kimi, Azərbaycan həm də çox sabit bir ölkədir. Ölkəmizdə kataklizmlər, qarşıdurmalar yoxdur. Ölkəmiz dünyanın çox diqqət etdiyi sivilizasiyaların, tolerantlığın mərkəzi kimi diqqəti cəlb edir. Bütün bu komponentlər əsas verir ki, Azərbaycan həmin sorğularda dördüncü yeri tutsun. Bir neçə gün qabaq başlamış olan devalvasiya, dolların bahalaşması ilə bunun üzərinə kölgə salmaq yanlış və əsassızdır".

**ADP sədr Sərdar Cəlaloğlu isə Azərbaycanın o siyahıda yalnız axırdan dördüncü yerə çıxmasının mümkün ola biləcəyini dedi:** “Bu sorğunu iqtidardakı bir ailənin içində də aparsalar, yenə də bu nəticəni almaq mümkün deyil. O zaman belə çıxır ki, alman, ingilis, fransız özünü bədbəxt hiss edir, Azərbaycan isə xoşbəxt?! Bu gülməlidir. Azərbaycanda elə bir komitə sədri görmüsünüz ki, onun gözündə xoşbəxtlik hiss edilsin?! Hansı milyoner, hansı nazir arxayındır ki, sabah onu gəlib həbs etməyəcəklər. Diqqətli, psixoloq olan hər kəs ölkəni idarə edənlərin hamısının üzlərindəki o kədəri, hətta onlar güləndə belə görə bilər. İki cür xoşbəxtlik var: yalançı və həqiqi. Yalançı xoşbəxtlik insanın özü ilə bilavasitə bağlı olmayan pul, vəzifədir. Həqiqi xoşbəxtlik isə daxili rahatlıq, mənəvi sakitlik, özünü realizə etməkdir. Azərbaycanda vəzifədə olanların 99 faizi o vəzifələrə layiq deyil. Onlar heç vaxt xoşbəxt ola bilməzlər. Çünki ictimai realizasiya üçün onların heç bir şəraiti yoxdur. Özünü realizə etməyi bacaranlar isə vəzifədə deyil. Yalançı xoşbəxtlik baxımından ola bilər ki, kiminsə haradasa 5-10 milyon pulu var. Amma onlar da tam xoşbəxt deyil. Çünki Eldar Mahmudovun, Əli İnsanovun və digərlərinin başına gələn hadisə onların da başına gələ bilər. Azərbaycanda nə qədər xoşbəxt dediyimiz milyarderlər özünü öldürüb, həbsxanaya düşüb. Bir insan həbs olunmaq təhlükəsi altında yaşaya-yaşaya necə xoşbəxt ola bilər?! Çox insan xoşbəxtliklə bədbəxtçiliyi ayırd edə bilmir. Bədbəxtdir, amma deyir xoşbəxtəm mən. Ona görə də o sorğu və nəticə boş şeydir. Azərbaycanda xoşbəxt olmaq üçün nə ictimai şərait var, nə də şəxsi göstəricilər. İnsan öz-özünü realizə edə bilmirsə, o heç vaxt xoşbəxt ola bilməz”.

❑ **Günel MANAFLI**



# Minval.az saytının 3 yaşı tamam oldu

## Rusdilli mətbuat orqanı reytinqinə görə ön sıralardadır; **Emil Mustafazadə:** “Biz ciddi auditoriya üçün işləyirik”

**Yanvarın 7-də minval.az saytının 3 yaşı tamam oldu. Mövcud olduğu illər ərzində ölkəmizin rusdilli mətbuat orqanları arasında özünə yer tutan, reytinqinə görə ön sıralarda olan sayt bu gün də fəaliyyətini uğurla həyata keçirir.**



**Minval.az-ın şef-redaktoru Emil Mustafazadə ilə saytın gələcək fəaliyyəti ilə bağlı söhbət etdik.**

***- Emil bəy, öncəliklə saytınızın 3 yaşının tamam olması münasibətilə sizləri təbrik edirəm. Bu günü necə qeyd edirsiniz?***

- Çox maraqlı sualdır. Biz hər il bu günü elə də təmtəraqlı deyil, kiçik kollektiv səviyyəsində qeyd edirik. Yəni atəşfəşanlıq etmirik (gülür). Dünən qərara gəldim ki, yaşımızın olması ilə bağlı kiçik bir köşə yazısı yazaq. Elan edək ki, yaşımızdır. Bayramı özümüz üçün işçi abı-havasında qeyd elədik.

***- Gələcək fəaliyyətinizdə yeni planlarınız nədən ibarətdir?***

- Mən rəhbərliyə keçəndən sonra bizə saytın yeni dizayneri təqdim olundu. Əvvəlki dizayn bizi elə də qane etmirdi. Düzdür, yenisi də bizi qane etmir. Amma əvvəlkinə baxanda düşünürəm ki, oxucu üçün bu versiya daha yaxşıdır. Bu bizim üçün çox stimulverici amil oldu. Planlarımız ondan ibarət idi ki, Azərbaycan jurnalistikasının rusdilli mətbuatına yeni standartlar gətirək. Bu nədən ibarət idi? Azərbaycan jurnalistikasında oxucunu başlıq, xəbərlərlə aldatmaq mümkündür. Azərbaycan oxucusu rusdilli auditoriyaya nisbətən çox da geniş xəbər almaq imkanına malik deyil. Amma rusdilli oxucu daha tələbkardır. Bunu nəzərə alaraq, bu vaxt ərzində çalışdıq ki, oxucunu aldatmayaq, onlara hörmət edək. İşimizdə əsas prinsip bu oldu. Özünüz də müşahidə etmisiniz ki, çox vaxt başlıqlar xəbərə uyğun olmur. Xırda şeylər bəzən şişirdilir. Biz buna son qoyduq. Kriminal xəbərlərin sayını xeyli azaltdıq. Çünki biz ya kriminal xəbər verib oxucuya neqativ abı-hava verməli idik, ya da belə xəbərlər verməməli idik. Ona görə də belə addım atdıq. İndi ən vacib xəbərləri veririk. Müəllif yazılarının sayını imkan daxilində artırmağa çalışdıq. Bildiyiniz kimi, əvvəllər saytımızda güclü analitik mərkəz var idi. Onu rəhmətlik Zəfər Quliyev idarə edirdi. O, şöbənin rəhbəri idi. Onun vəfatından sonra çox şeydən məhrum olduq. İndi də saytımızda bu sahə ciddi şəkildə axsayır. Hazırda çalışırıq ki, əsas işimizi xəbərlərin çatdırılması istiqamətinə yönəldək. Ölkədə vəziyyət tam ürəkaçan deyil. Risklər mövcuddur, kimsə nəsə yazanda, düzgün qəbul etmirlər. Onu nəzərə aldıq ki, fikirlərimiz kimlərinsə xoşuna gəlməyə bilər. Baxmayaraq ki, azıq, amma bu müddət ərzində böyük işlər gördük. 4 nəfər olaraq, 20 nəfərin işini bu vaxta qədər görmüşük. Kollektivimizin işindən çox razıyam. Biz ideal deyilik, amma əvvəlki illərdən fərqli olaraq, özümüzə auditoriya toplaya bildik. Onlar hər gün bizi oxuyurlar. Təsisçimiz Rauf Arifoğludur. Rauf bəy ilk günlərdən saytımızın yeganə ən böyük dəstəkçisi olub. Sizin vasitənizlə onu təbrik edirəm. Saytımız adından, “Yeni Müsavat Holdinq”ə uğurlar diləyirəm.

***- Digər rusdilli mətbuat orqanları ilə rəqabətiniz necə gedir?***

- Bu suala öz yanaşmam var. Kiminləsə rəqabət aparmaq istəmirik. Çünki rəqabət apararkən təkrarlamalar olur. Sadəcə, çalışırıq ki, xəbərləri digərlərindən tez çatdıraq. İşimizə uyğun sistemlər qurmuşuq. O sistemlərə nisbətən xəbərlər bizdə daha tez gedir. Demək istəməzdim ki, rəqiblərimiz yoxdur. Amma bu gün minval.az saytına rəqib “Turan” informasiya agentliyini görürəm. Bu arada qeyd edim ki, yeni sistemə keçdikdən sonra oxucularımızın sayı artıb. Konkret bir auditoriya formalaşdırmışıq ki, onlar hər gün saytımızı oxuyurlar. Bu bizə çox xoşdur ki, işimizi qiymətləndirirlər. Biz ciddi auditoriya üçün işləyirik. Siyasət, iqtisadiyyatla maraqlanan şəxslər bizi oxuyurlar.

**“Yeni Müsavat” olaraq, minval.az saytını təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 4 (6325) 8 yanvar 2016

# Ailəsi MTN polkovnikinin özünü öldürməsinə inanmır

## İlqar Əliyevin Eldar Mahmudov və Akif Çovdarovla üzləşdirmədən sonra özünü asması iddiası var...

**Ləğv olunmuş MTN-in Antiterror Mərkəzinin rəis müavini vəzifəsində çalışmış polkovnik İlqar Əliyevin saxlanıldığı Bakı İstintaq Təcridxanasında (BİT) ölümü ətrafında söz-söhbətlər səngimir. Aldığımız son məlumatlar onu deməyə əsas verir ki, ictimaiyyətin böyük əksəriyyəti kimi polkovnikin ailəsi də onun intihar etdiyinə inanmır.**

İ.Əliyevin ailəsinə yaxın mənbə "Yeni Müsavat"a deyib ki, ailə üzvləri onun həyatla öz xoşu ilə vidalaşdığına inanmadıqlarını istintaqçılara da deyiblər. "İlqar Əliyev ölümündən az əvvəl həyat yoldaşı ilə telefonla danışıb, hər şeyin normal olduğunu deyib. Onun iki uşağı var, yoldaşından uşaqlarını soruşub. Deyib ki, hər şey yaxşı olacaq. Yəni özü də bilirdi ki, 10-12 il cəza verilə bilər. Həbsə düşməyindən narahat olub, bədbin, fikirləri qarışıq olub. Amma özünü asması heç ağla gələn məsələ deyil", - deyə mənbə bildirib. Əlavə edib ki, ailəsi baş vermiş hadisənin şokundadır: "O, niyə belə edib, bilmirlər. Həbsindən sonra həftədə iki dəfə ailəsi ilə danışıb. Onlara da deyib ki, narahat olmasınlar. Elə bilsinlər ki, bir ötəri hadisədir. Deyib ki, atası, qardaşı çox da qüssələnməsin. Bir işdir başına gəlib. Yəni İlqar Əliyev həbs olunmasından narazı olub. Amma onun özünü asması üçün əsasları olmayıb. Onun ölümündən sonra vəkili də ailəsinə deyib ki, İlqarın vəziyyəti pis olmayıb. Onunla məsləhətləşmələr aparıb, müdafiə taktikası qurub, vəsatətlər hazırlayıblar. Vəkili hər gün onunla görüşüb, nə edəcəklərini müzakirə ediblər. Adam özünü asacaqdısa, niyə müdafiə olunmağa hazırlaşıb?"

**Mənbə İ.Əliyevə təzyiqlər olub-olmamasından ailəsinin xəbəri olmadığını da deyib:** "Vəkili İlqarın atasına deyib ki, belə bir şey olmayıb. Vəkil onunla sonuncu dəfə ölümündən 2 gün əvvəl görüşüb. Həftənin 5-ci günü olub. Həmin görüş zamanı da İlqar özünü əvvəlki kimi aparıb. Yəni özünü öldürəcəyinə hər hansı işarə vurmayıb. O, uşaqlarını çox istəyirdi. Özünü öldürəcək qədər bədbin olmayıb. Ölümündən 1 neçə saat əvvəl yoldaşı ilə danışıb. Ona da hər hansı bir işarə verməyib. Özü də bilirdi ki, iş alacaq. Yəni özünü asması üçün ciddi əsas mövcud olmayıb".

**İ.Əliyevin ölümündən sonra onun Göyçayda dəfn olunacağı gözlənilirdi. Lakin gözlənilmədən onu Bakıda, "Qurd qapısı" deyilən ərazidəki qəbiristanlığda dəfn etdilər. Bəs bu gözlənilməz addımı şərtləndirən nə olub?**

**Mənbə deyir ki, İ.Əliyev həbsindən əvvəl özünə qəbir yeri alıb:** "Atası istəyirdi ki, onu Göyçayda - anasının məzarı yanında dəfn etsinlər. Amma həyat yoldaşı razı olmadı. Çünki İlqar Əliyev həbsindən əvvəl özünə qəbir yeri almışdı. 3 ay əvvəl almışdı, 1 il əvvəl almışdı - bunu dəqiq bilmirəm. Atası Bakıda dəfndə də iştirak etmədi. Ailəsi istintaqın nəticəsini gözləyir. Onun özünü öldürdüyünə inanmırlar".

**"İlqar Əliyev sabiq MTN şefi Eldar Mahmudov və Akif Çovdarovla üzləşdirilib. Amma İlqar Əliyev Mahmudovun üzünə durmaqdan imtina edib. Bundan bir neçə gün sonra isə İlqar Əliyevin intihar xəbəri yayılıb" - belə bir məlumatı isə arqument.az saytı yayıb. Sayt özəl mənbəyə istinadən yazır ki, İlqar Əliyev məhz sonrakı proseslərdə Mahmudovun əleyhinə ifadə verməmək üçün özünə qəsd edib və ya hansısa gizli məlumatlara malik olduğu üçün** aradan götürülüb: **"İlqar Əliyevin qısa zamanda dəfn edilməsi də olayla bağlı şübhələri artırıb və maraqlı suallar doğurub. İlqar Əliyevin vəkili Rəşad Mehdizadə isə iddia ilə bağlı bunları deyib:** "İlqar Əliyev 2 ay həbsdə olub, bu müddət ərzində də heç kimlə üzləşdirilməyib".

**Akif Çovdarovun vəkili Sadiq Rəsulov da belə bir üzləşmənin olmadığını deyib:** "Məlumat həqiqəti əks etdirmir". Gündəmdə isə polkovnik İlqar Əliyevin Bakı İstintaq Təcridxanasında (BIT) özünü asmasını şübhə altına alan çoxsaylı məlumatlar dolaşır. Belə ki, polkovnikin mələfəni haradan alması, özünü haradan və necə asması, BİT nəzarətçilərinin həmin vaxt harada olmaları, həmçinin kamera yoldaşının kimliyi və sonradan intihar etməsi və s. digər suallar cavabsız qalıb. İlqar Əliyevin intiharı ilə bağlı mövzunun bu qədər aktual olmasına gəlincə, o, MTN-də sıradan bir işçi olmayıb. Adı illərlə ictimai-siyasi fəallara qarşı qanunsuz əməliyyatlarda, qanunsuz dinləmələrdə,


İlqar Əliyev

qanunsuz gizli çəkilişlərdə hallanan Əliyevin sahibkarlara qarşı etdiyi qanunsuzluqlar haqda isə saysız-hesabsız məlumatlar mövcuddur. Belə ki, İlqar Əliyevin meyiti BİT-dən çıxandan 2 gün sonra - 2015-ci il dekabrın 22-də orada saxlanılan digər məhbus Manaf Paşayevin də meyiti aşkar olunub. Rəsmi məlumatda onun da özünü asdığı bildirilib. M.Paşayevin İlqar Əliyevin kamera yoldaşı olduğu haqda məlumat vardı. Belə ehtimallar da irəli sürülür ki, M.Paşayev I.Əliyevin ölümü haqda məlumatlara malik olub və bu üzdən o da eyni üsulla aradan götürülüb.

Qeyd edək ki, ötən ilin oktyabr ayında İlqar Əliyevin barəsində Səbayel Rayon Məhkəməsinin qərarı ilə həbs-qətimkan tədbiri seçilmişdi. O, Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309.1 (vəzifə səlahiyyətlərini aşma) və 302.2-ci (əməliyyat-axtarış fəaliyyəti haqda qanunvericiliyi pozma) maddələri ilə təqsirləndirilirdi.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Böhranın dəhşətli üzü: ağır cinayətlər və intiharlar çoxalır

## Azad İsazadə: "Böhran dövründə insanların psixoloji yardıma ehtiyacı çoxalacaq, bunun üçün qaynar xətlərin yaradılmasına ehtiyac var"


Azad İsazadə

**Ölkədə iqtisadi böhranın dərinləşməsi ilə sosial vəziyyət də gərginləşir. Qətl, intihar, oğurluq hadisələrinin sayı və miqyası artır. Hətta yaxın qohumlar arasında baş verən qətl hadisələri, banklara borcu olanların həmin obyektlərin qarşısında özünü yandırması vəziyyətin nə dərəcədə ciddi olmasından xəbər verir. Səbəblər isə bəllidir. Manatın il ərzində iki dəfə devalvasiyaya uğraması əhalinin gəlirlərini azaldıb, bunun əvəzində xarici valyuta ilə banklara borcu olanların kreditləri 70 faizdən artıq çoxalıb, bazarlardakı bahalaşma insanlarda psixoloji gərginliyə səbəb olub.**

Yanvarın 7-də Neftçala şəhərində 4 saylı orta məktəbin təsərrüfat işləri üzrə direktor müavini olan 63 yaşlı Alik Mustafayevin banklara 7 min manata yaxın borcu olması səbəbindən özünü yandırması da deyilənlərin əyani sübutudur. Məlumata görə, intihar edən şəxs maddi imkansızlıqdan bu kreditləri qaytara bilməyib, nəticədə borclu olduğu bank onu məhkəməyə verib. Çıxış yolunu intiharda görən Alik Mustafayev məktəbin qazanxanasında üzərinə benzin tökərək özünü yandırıb.

**Psixoloq Azad İsazadə də "Yeni Müsavat"a danışarkən bildirdi ki, ölkədə sosial vəziyyət ağırlaşacaq və hamımız buna hazır olmalıyıq:** "Kritik vəziyyətlər həm ailədə, həm də cəmiyyətdə ola bilər. Lakin artıq cəmiyyətdə aqressiya çoxalıb, bu da özünü büruzə verir. Amma biz hamımız yeni duruma hazırlaşmalıyıq. Burada hansısa ekstremal çıxış yolları axtarmaq düzgün deyil. Sadəcə, başa düşürəm ki, bəzi fərdlər problemə həll yolu tapa bilməyəndə qeyri-adi yollara əl atırlar. Bu səbəbdən hökumət cəmiyyəti növbəti mərhələdə nələrin gözlədiyinə hazırlamalıdır. O cümlədən əhalinin sosial-psixoloji hazırlığı üçün də antikrizis, təbliğat tədbirləri görülməlidir.

Bir çox dövlət və özəl qurumlarda ixtisarların getməsi işsizlərin sayını artıracaq və bu da ilk növbədə depressiya hallarının sayını artıracaq. İşsiz adam bekar qalır, çıxış yolu axtarır, bir qism insanlar buna aqressiya ilə reaksiya verir, bəziləri isə depressiyaya düşür və özünə qapanır. Bu isə özünü silsilə şəklində qətl və intihar hadisələrinin baş verməsi ilə büruzə verəcək. Bu dalğanın qarşısını mütləq almaq lazımdır".

İşsizlərin və yoxsulluq həddində çatanların sayının artması oğurluq hadisələrinin artacağını da ehtimal etməyə əsas verir. Ehtimal etmək olar ki, bu zaman hədəfdə daha çox imkanlı şəxslər olacaq. Qeyd edək ki. sosial təbəqələşmənin həddindən artıq kəskin olduğu cəmiyyətlərdə yoxsulların varlılara hücumu halları artır. Hətta bəzi ölkələrdə bu səbəbdən yoxsul və varlı məhəllələr bir-birindən çox uzaqda yerləşir və xüsusi sədlərlə ayrılır.

**Psixoloq da deyir ki, cəmiyyətdə kriminal hadisələr çoxaldıqca imkanlı şəxslərin də qorxusu artır:** "Qorxu hamımızda var. Kimdə pul çoxdursa, onun qorxusu da çoxdur. Bu hadisələrin baş verməsinin qarşısını ancaq hansısa real tədbirlər görməklə almaq olar. İşdən çıxarılanlar hansısa formada kompensasiya olunmalıdır, onlara işlər təklif olunmalıdır. Bir-iki illik böyük bir proqram olmalıdır, hamı bilməlidir ki, onları 3-5 aydan sonra nə gözləyir. Nəyə ümid etmək olar? Bu böhran neçə il davam edəcək? Cəmiyyətlə açıq söhbət, dialoq aparmaq lazımdır.

Böhran dövründə insanların psixoloji yardıma ehtiyacı çoxalacaq. Bəzən insanlar özləri də bilmirlər ki, onlara psixoloji yardım lazımdır. Ölkədə pulsuz psixoloji xidməti genişləndirmək və təbliğ etmək lazımdır. Yardım göstərən ünvanlar, qaynar xətlər olmalıdır ki, insanlar ağır vəziyyətə düşəndə bu ünvanlara müraciət etsinlər".

❑ **Nərgiz LİFTİYEVA**

# "Qızıl Məryəm"i öldürən qızı imiş

## Günel Hüseynova və digər qohumları istintaqa cəlb olunublar





**Yanvarın 5-də yaşadığı mənzildə qətlə yetirilən "Qızıl Məryəm" kimi tanınan 1965-ci il təvəllüdlü Namidzadə Məryəm Tofiq qızını öldürməkdə təsirləndirilən şəxslər saxlanılıb. Bakı Şəhər Baş Polis İdarəsi və Bakı Şəhər Prokurorluğunun birgə yaydığı məlumatda bildirilir ki, həyata keçirilmiş istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin mərhumun qızı 1988-ci il təvəllüdlü Günel Hüseynova, qohumu (bacısı oğlu) 1998-ci il təvəllüdlü Nicat Eyvazov və 1997-ci il təvəllüdlü Ceyhun Əsgərov tərəfindən törədilməsində əsaslı şübhələr olduğundan onlar tutularaq istintaqa cəlb olunublar. Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam etdirilir.**

"Qızıl Məryəm" Bakıda qızıl və zinət əşyalarının satışı ilə məşğul olurdu. Qətl törədilən zaman mağazadakı qızılların evdə olduğu məlum olub. İlkin məlumata görə, evdən 30 min manatlıq qızıl və nağd pul aparılıb. Yayılan digər bir məlumatda isə bildirilir ki, evdə 1 milyon manatlıq qızıl və zinət əşyaları olub.

Qafqazinfo.az-ın məlumatına görə, Məryəmin anası da uzun müddət qızıl alveri ilə məşğul olub və hazırda onun işlətdiyi Mərkəzi Univermaqdakı mağaza da anasından qalıb. Anası vəfat edəndə bu mağaza miras kimi Məryəm və qardaşı Əmir arasında bölünməli imiş. Bu məsələyə görə bacı-qardaş uzun müddət davalı olublar. İddiaya görə, Məryəm öz əlaqələri vasitəsilə o vaxt qardaşı Əmiri həbs etdirib və mağaza onun özünə qalıb. Əmir isə narkotik ittihamı ilə həbs edilib və hələ də cəzaçəkmə müəssisəsindədir. "Qızl Məryəm"in qızı ailə həyatı qurduqdan bir müddət sonra boşanıb. Məryəm Namidzadənin təsiri ilə qızının keçmiş əri dələduzluqda ittiham olunaraq 9 il həbs cəzası alıb. O da hazırda cəzaçəkmə müəssisəsindədir.

Günel Hüseynovanın sosial şəbəkələrdə lüks həyat tərzi yaşamasını əks etdirən fotoları da yayılıb. G.Hüseynovanın lüks avtomobili hələ də yaşadıqları binanın qarşısındadır.

Öldürülən "Qızıl Məryəm"in bir neçə il əvvəl boşandığı ərinin kimliyi isə çox maraqlıdır. Musavat.com-un əldə etdiyi məlumata görə, onun həyat yoldaşı Qarabağ qazisi Mehman Hüseynov olub.

M.Hüseynov "Qızıl Məryəm"dən ayrıldıqdan sonra bir müddət Bakıxanov qəsəbəsində tənha yaşayıb. Ömrünün son günlərini kasıblıqla keçirən Qarabağ qazisi 2015-ci ilin may ayında ürək çatışmazlığından dünyasını dəyişmişdi.

M.Hüseynov Qarabağ müharibəsindən bəhs edən məşhur "Fəryad" filmindəki baş qəhrəmanın prototipi olub. O, Milli Ordumuzun ilk hərbi hissələrindən birində - könüllülərdən ibarət Şıx batalyonunda tağım komandiri olub. 1991-ci ilin dekabrında Qarabağın Kərkicahan qəsəbəsində gedən döyüşlərdə M.Hüseynov yaralı vəziyyətdə düşmənə əsir düşüb.

Mehman Hüseynovun döyüş yolu və əsir düşdüyü epizodlar sonralar Ceyhun Mirzəyevin ekranlaşdırdığı "Fəryad" filminin ssenarisinə daxil edilib. Bu baxımdan, o, həmin ekran əsərinin baş qəhrəmanının prototipi olub.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 4 (6325) 8 yanvar 2016

### "Üçüncü devalvasiyaya hazır olun" anonsu

# Elman Rüstəmovun manat oyunu - yenə mat olacağıq...

## Neftin qiymətinin yenidən ucuzlaşması dərhal Bakıda da öz təsirini göstərdi; manatın onsuz da zəifləmiş mövqeyi yenidən ciddi təhlükə altındadır; vətəndaşlara dollar satışına limit qoyuldu; Şahmat Federasiyasına da rəhbərlik edən Mərkəzi Bank sədri üçüncü devalvasiyanı bu dəfə "dollar ajiotajı" ilə ört-basdır etmək niyyətindədir...



**Yanvarın 7-də "Brent" markalı neft ucuzlaşaraq 32,75 dollara düşüb. Bu, 2004-cü ilin aprelindən bəri ən aşağı göstəricidir. Neftin qiymətinin yenidən ucuzlaşması dərhal dünyanın valyuta bazarlarına da öz təsirini göstərib. Rusiyada rublun məzənnəsi dollar və avro qarşısında kəskin ucuzlaşıb. Moskva birjasında 1 ABŞ dolları 1,44 rubl bahalaşaraq 74,75 rubla yüksəlib. 1 avro isə 1,92 rubl artaraq 80 rublu ötüb və 80,64 rubl olub. Proqnozlara görə, rublun ucuzlaşması davam edəcək.**

Yanvarın 7-də Çin Xalq Bankı milli valyutanı ucuzlaşdırıb, bir dollar 6.5646 yuana bərabərləşib. Bu, 2011-ci ilin martından ən aşağı məzənnədir. Xatırladaq ki, ötən il Çinin yuanın cüzi devalvasiyasını həyata keçirməsi dünya iqtisadiyyatında ciddi təlatümlərə səbəb olmuşdu və neftin daha sürətlə ucuzlaşmasına təsir etmişdi. Məhz Çinin devalvasiyaya getməsindən sonra Azərbaycan manatının da mövqeləri zəifləməyə başladı və Mərkəzi Bank ikinci devalvasiyaya qərar verdi. Çin valyutasının ikinci dəfə devalvasiya etməsi isə manatın onsuz da zəifləmiş mövqelərinə yenidən ciddi təhlükə yaradıb.

Dekabrın 21-də üzən məzənnəyə keçərək 48 faiz dəyər itirən Azərbaycan manatı da ucuzlaşıb. Paytaxt Bakının mərkəzindəki valyutadəyişmə məntəqələrində dolların məzənnəsi yanvarın 6-na nisbətən kəskin artıb. Belə ki, yanvarın 7-də valyutadəyişmə məntəqələrində ABŞ dolları 1,6-1,63 manata alınıb, 1,70-1,72 manata satılıb. Paralel olaraq avronun məzənnəsi də yüksəlib. Avropa valyutasının alış qiyməti 1,72 manat, satış qiyməti 1,86 manat təşkil edib.

Azərbaycan Mərkəzi Bankı isə ikili oyun oynamaqdadır. Belə ki, Mərkəzi Bank yanvarın 6-da dollar satışı həyata keçirməyib və bazarda yaranmış gərginliyi daha da artırıb. Buna rəğmən isə Elman Rüstəmovun rəhbərlik etdiyi qurum həm də manatın ucuzlaşmasının qarşısını qəhətə çəkilən dolların kursunu sabit saxlamaqla almağa çalışır. Yəni Mərkəzi Bank dolları satışa çıxarmır, sonra isə "dollar niyə qıtdır və niyə bahalaşıb?" deyə yalandan haray salır. Aydındır ki, yaxınlaşmaqda olan üçüncü devalvasiyada Mərkəzi Bank öz dollar rezervlərini banklara dağıtmaq niyyətində deyil və bu səbəbdən də dollar satışında məhdudiyyətlər qoyub. Üstəlik, Mərkəzi Bank artıq 500 dollardan çox məbləğin alışı zamanı vətəndaşlardan şəxsiyyət vəsiqəsinin tələb ediləcəyi ilə bağlı qərarını açıqlayıb. Belə ki, əvvəllər vətəndaşlardan 5000 ABŞ dolları həcmində pulun alışı zamanı şəxsiyyət vəsiqəsi tələb olunurdusa, indi bu rəqəm 500 dollara düşüb. Mərkəzi Bank "Mübadilə şöbələrinin təşkili və mübadilə əməliyyatlarının aparılması Qaydaları"nı təsdiq edərək dolların mübadilə kursunu banklara həvalə edib. Yeni qaydalarda ən maraqlı məqam odur ki, əməliyyat günü ərzində məzənnələr bankın əmri ilə dəyişdirilə bilər. Bu zaman əmr faks, elektron poçt və ya digər vasitələrlə şöbəyə çatdırılmalıdır. Məzənnənin dəyişdirilməsi (dəyişmənin vaxtı və tarixi daxil olmaqla) şöbənin qeydiyyat jurnalında qeydə alınmalı və şöbədə quraşdırılmış lövhədə əks etdirilməlidir. Məzənnənin müəyyən edilməsi barəsində sənəd mübadilə şöbəsində günün sənədlərinə tikilməlidir.

Hazırda Mərkəzi Bankın bu cür inzibati metodlarla bazara nəzarət etməsinin neçə gün effekt verəcəyi bir sıra haqlı suallar doğurur. Məlumatlara görə, bu, yalnız qısa müddətdə manatın müəyyən qədər sürətli dəyər itirməsinin qarşısını ala bilər. Mərkəzi Bankın devalvasiyadan qorunmaq üçün orta və uzunmüddətli dövrdə faktiki heç bir proqramı yoxdur və real vəziyyətə nəzarəti itirib.

Hazırda ölkənin maliyyə bazarında baş verənləri izah etmək çox çətindir. Görünən odur ki, maliyyə sektorunun rəhbərləri üçüncü devalvasiyanı "dollar ajiotajı" ilə ört-basdır etmək niyyətindədir və əslində manatın ucuzlaşdırılması prosesini məhz Mərkəzi Bank yaradır. Yada salaq ki, həm fevralın 21-i, həm dekabrın 21-i devalvasiyasından öncə Mərkəzi Bank rəhbərliyi manatın kursunun sabit qalacağı vədini vermişdi. Hər iki halda xalq aldadıldı. Azərbaycan Şahmat Federasiyasına da rəhbərlik edən Elman Rüstəmov belə görünür ki, bu dəfə daha kombinasiyalı gediş etmək üçün çalışır. Xalqın yenə mat olacağı isə indidən görünməkdədir...

❑ **"Yeni Müsavat"**

# İrəvan və Tehranın Bakı əleyhinə gizli oyunları: iki paytaxt TANAP-a qarşı...

## Bu avantürist planları, nə qədər qəribə də olsa, Rusiya poza bilər - ancaq öz maraqları çərçivəsində; Gürcüstanın Kremldən siyasi asılılığı güclənəcək, əgər...

**Gürcüstanın Ermənistan üzərindən İran qazı almaq planları gündəmin əsas mövzularından biri olaraq qalır. Xatırladaq ki, bugünlərdə İranın Milli Qaz Şirkətinin nümayəndəsi Əli Rza Kameli rəsmi Tehranın Gürcüstana Ermənistan vasitəsilə qaz ötürməsi barədə Tiflislə danışıqlar aparıldığını bildirmişdi. Onun sözlərinə görə, razılaşmalar baş tutsa, İran Ermənistan üzərindən Gürcüstana sutkada 300-350 milyon kubmetr qaz nəql edə biləcək.**




Lakin az sonra Gürcüstanın Energetika Nazirliyi bəyanatla çıxış edərək, danışıqların aparıldığını təsdiqləsə də hələlik konkret anlaşmanın olmadığını bəyan elədi. Siyasi müşahidəçilər də prosesin bir elə asan getməyəcəyi qənaətindədirlər. Əsas səbəb kimi də münaqişələrlə zəngin Güney Qafqazda üç regional gücün - Rusiya, Türkiyə və İranın geosiyasi və iqtisadi (energetik) maraqlarının toqquşmasıdır.

***

"Rusiya daha böyük qaz yataqlarına malik olan İranın Avropaya və yaxud postsovet bazarlarına çıxmasına imkan verməyəcək". Bunu axar.az-a **politoloq Qabil Hüseynli** bildirib. Sabiq dövlət müşaviri hesab edir ki, İran bu addımı ilə Azərbaycanın da maraqlarına qarşı çıxır: "İran təkcə Ermənistan üzərindən Gürcüstana deyil, eyni zamanda Avropaya da çıxış yolu axtarır. Tehran TANAP-a və Azərbaycanın digər qaz layihələrinə alternativ qaz kəməri formalaşdırmaqla Bakı qazının əhəmiyyətini azaltmağa çalışır. Bu məsələdə onu qızışdıran tərəflərdən biri Ermənistandır. Açıq desək, Gürcüstan qaz xətlərinin şaxələndirilməsi adı altında məsələni ört-basdır etməklə öz siyasi maraqlarını güdür. İran isə Azərbaycanın həm rus, həm də Qərb siyasətinin əleyhinədir. İranın Ermənistana qaz kəmərini necə çəkəcəyi isə əslində elə də asan məsələ deyil".

**Politoloq bu xüsusda hesab edir ki, İran postsovet məkanı bazarlarına qaz çıxarmağa başlasa, Rusiya ilə maraqları toqquşacaq:** "Kreml bu haqda hətta Ermənistana bir dəfə qəti etirazını bildirib. Kreml İran qazının Ermənistandan keçərək Gürcüstana getməsinə qarşıdır. Çünki İran qaz siyasətindən istifadə edərək Avropaya yol aça bilər. Ən azından Cənubi Avropa, Ukrayna, Bolqarıstana qaz çıxara bilər. İran bu addımı ilə Azərbaycanın da maraqlarına qarşı çıxır. Tehranın İrəvanla belə bir yaxınlaşmaya getməsi onu göstərir ki, İran səmimi deyil".

**Ekspertin sözlərinə görə, Moskva Ermənistanın İran siyasi rəhbərliyini şirnikləndirərək Tehranla avantürist layihəyə getməsinə icazə verməyəcək:** "Çünki bu, birbaşa Rusiyanın maraqlarına ziddir. Rusiya daha böyük qaz yataqlarına malik İranın Avropaya və yaxud postsovet məkanı bazarlarına çıxmasına imkan verməyəcək. Danışıqlara baxmayaq, mən bu işin baş tutacağı qənaətində deyiləm".

***

Qonşu Gürcüstan da faktiki surətdə Azərbaycana qarşı "qaz oyunları" içindədir - hərgah, rəsmi açıqlamalarda bu görmək mümkün deyil. "İran Gürcüstana qaz satsa, o zaman Tiflisin "Qazprom" qarşısında maliyyə öhdəlikləri yaranmış olacaq". Bunu isə jurnalistlərə açıqlamasında Gürcüstanın energetika nazirinin müavini İlya Eloşvili söyləyib.

**Onun sözlərinə görə, İran qazı Gürcüstana yalnız Ermənistan vasitəsilə gələ bilər:** "İrandan qaz gəlməsi üçün Ermənistan ərazisindəki 700 millimetrlik boru kəmərindən istifadə edilməlidir. Bu boru kəmərinin sahibi "Qazprom"un törəməsi olan şirkətdir. Əgər biz İrandan qaz alsaq, o zaman tranzit üçün "Qazprom"a qaz ödəmiş olacağıq. Gürcüstanın Azərbaycan, Rusiya və İrandan qaz almaq imkanları var. Biz hər üç ölkə ilə açıq danışıqlar aparmalıyıq və öz milli maraqlarımızdan çıxış etməliyik. Biz bir mənbədən asılı olmamalıyıq".

Yada salaq ki, hazırda Gürcüstanın ən böyük qaz təchizatçısı Azərbaycandır. SOCAR ölkənin qaza olan tələbatının hamısını ödəyə biləcəyini bəyan etsə də, Tiflis buna məhəl qoymur. Hazırkı hakimiyyət ölkənin enerji mənbələrinin diversifikasiyasını həyata keçirməkdə israrlı olduğunu bildirib. Məhz buna görə "Qazprom" və İranla danışıqlara başlayıb.

Ancaq göründüyü kimi, bu, elə də asan reallaşa bilən məsələ deyil. İş ondadır ki, qaz təchizatçılarının diversifikasiyasının sonunda Tiflis Kremldən daha güclü asılılığa düşə bilər. O zaman sual ortaya çıxacaq: görəsən, Azərbaycandan asılılıq daha yaxşıdır, yoxsa Gürcüstan iqtidarının işğalçı adlandırdığı Rusiyadan?

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 4 (6325) 8 yanvar 2016

# Hökumət böhran büdcəsinə keçə bilər

**Neftin qiymətinin 35 dollardan aşağı düşməsi hökuməti böhran büdcəsi haqqında düşünməyə vadar edə bilər. 2016-cı il üçün proqnozlaşdırılan dövlət büdcəsində neftin qiyməti 50 dollardan götürülsə də, hazırda dünya bazarında "qara qızılın" dəyəri 35 dollar civarındadır. Bəs görəsən, neftdən daxilolmaların azalması büdcədə nəzərdə tutulan xərcləmələrin tam şəkildə həyata keçirilməsinə imkan verəcəkmi?**

Onu da nəzərə alaq ki, büdcə proqnozlaşdırılarkən dollarla daxil olan neft gəlirləri 1.05 manat kursu ilə hesablanırdı. Manatın devalvasiyası isə bu gəlirləri avtomatik olaraq 50 faiz artırdı və beləcə büdcə gəlirləri manatla ifadəsində 50 faiz artmış oldu.

Lakin bu faktın özü də büdcənin tam reallaşması üçün əsas sayılmır. Hökumət böhran büdcəsi ilə bağlı qeyri-rəsmi göstərişlər verməkdədir. Qeyri-rəsmi məlumatlara görə, idarə və müəssisələrə ciddi ixtisarlara başlamaqla bağlı tapşırıqlar verilib. Büdcədə neftin qiymətinin 35 dollardan hesablanması, idarəetmə xərclərinin də azalacağından və bir çox nazirliklərdə ciddi ixtisarların gedəcəyindən, bəzi qurumların isə tamamilə ləğv ediləcəyindən və ya birləşdiriləcəyindən xəbər verir.

Parlamentin növbəti, fevral ayında baş tutacaq iclasında bu məsələlərin müzakirəsi nəzərdə tutulur. Lakin daha tez, növbədənkənar iclasın keçiriləcəyi də istisna deyil.

**İqtisadçı ekspert Azər Mehtiyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hökumət şişirdilmiş idarəetmə strukturlarında ciddi şəkildə ixtisarlar aparmaqla bu xərcləri minimuma endirməlidir:** "Neftin qiyməti ucuzlaşmaqda davam edir. Dövlət büdcəsinin gəlirlərinin ciddi bir hissəsi neftdən gələn dollarlar hesabına formalaşdığı üçün neftin qiymətindən ciddi şəkildə asılıdır. Söhbət həm Neft Fondundan köçürmələrdən gedir, həm də xarici neft şirkətlərinin mənfəət vergisindən əldə etdiyi vəsaitdən gedir. Burada neftin ucuzlaşması ikitərəfli təsir göstərir, həm ölkəyə daxil olan neft gəlirlərinin, eləcə də bundan daxil olan mənfəət vergisinin azalması, həm də Neft Fondunun gəlirlərinin azalması. Düzdür, devalvasiyadan sonra həmin gəlirlərin manatla ifadəsində artması xərclərin ödənilməsinə müsbət təsir edə bilər. Lakin bu da mövcud büdcə proqnozlarının icrasını mümkünsüz edir.

Hökumətin hazırda atmalı olduğu iki vacib addım var. Bunlardan birincisi, son zamanlar manatla və iqtisadi böhranla bağlı baş verən sosial gərginliyin artmasının qarşısını almaq, əhalinin az gəlirli təbəqələrinə kompensasiyaların verilməsidir. Çünki hazırkı proseslər ölkədə yoxsulluq səviyyəsini də artıracaq ki, bu da həmin sosial sahəyə əlavə vəsaitlərin yönəldilməsini tələb edir. Bu halda büdcəyə yenidən baxılması və sosial məqsədlər üçün əlavə vəsaitlərin verilməsinə ehtiyac var. Büdcədə investisiya xərclərini ixtisar etmək də hökumət üçün çətin addımdır. Çünki bu sahədə baş verən dəyişikliklər dolayısı ilə iş yerlərinin ixtisarına, vergilərin azalmasına aparıb çıxarır. Bu da dolayısı ilə büdcə gəlirlərini azaldan amildir. Bu baxımdan investisiya xərclərinin azaldılması yenidən büdcəyə zərbə vurur".

**A.Mehtiyevin sözlərinə görə, əsas ixtisar olunmalı məsələlər ölkənin heç bir fayda götürmədiyi və ya ən azı ciddi fayda götürə bilməyəcəyi layihələrdir:** "O cümlədən buraya iri idman layihələrini, son zamanlar dəb halını almış infrastruktur layihələrini aid etmək olar. Dövlət qurumları üçün binaların tikilməsi, ofislərin tikilməsi kimi xərclərdən imtina olunmalıdır. Digər layihələrin xərcləri də qənaət rejiminə uyğunlaşdırılmalıdır. Biz uzun zaman öncə deyirdik ki, büdcədə şişirdilmiş xərclər çoxdur və onlara qənaət edilməsinə ehtiyac var. İndiki halda da bu problemlərin həllində əsas yol bədxərcliyin aradan qaldırılmasıdır. Ölkədə son dərəcə şişirdilmiş idarəetmə aparatı var. Sadəcə, iş yerlərinin sayını artırmaq məqsədilə büdcə təşkilatlarının nəzdində son dərəcə artıq iş yerləri yaradılıb. Bunların da ixtisarına ehtiyac var. Düzdür, işsizlərin sayını artırmaq sosial gərginliyə səbəb ola bilər. Bu işsiz qalan insanların iş yerləri ilə təmin olunması üçün özəl sahibkarlıq mühitinin formalaşmasına ehtiyac var. Həmçinin hökumət daha çox sahibkarlıq sahəsində mühitin yaxşılaşdırılması istiqamətində addımlar atmalı, onlara sərbəstlik verməklə vergi ödəyicilərini fəallaşdırmalıdır ki, büdcəyə daha çox vəsait toplansın".



**Azər Mehtiyev:** "İri idman layihələrindən, dövlət qurumları üçün binaların, ofislərin tikilməsindən imtina olunmalıdır"



**Qubad İbadoğlu:** "Variantlardan biri də o ola bilər ki, yerli icra nümayəndəlikləri ləğv olunsun"

**İqtisadçı ekspert Qubad İbadoğlu isə büdcə vəsaitlərinin ixtisar edilməsi fonunda nəqliyyat və rabitə xərclərinin artırılacağını proqnozlaşdırdığını bildirdi:** "Dövlət büdcəsində xərclər maksimum kəsilib, investisiya xərcləri ixtisar olunub. Bir çox əlavə xərclərin də kəsilməsinə ehtiyac var. Eyni zamanda bir çox sahələrdə bahalaşma ola bilər. Mən nəqliyyatda və rabitə xərclərində dəyişikliyin olacağını gözləyirəm. Büdcə gəlirləri azaldığı üçün hökumət buna getmək məcburiyyətində qalacaq. Əslində büdcənin gəlirlər hissəsində neftin qiyməti ilə bağlı dəyişikliklər proqnozlaşdırılmır. Çünki neftin qiymətinin aşağı düşməsi Neft Fondundan transferlərin aşağı düşməsinə gətirib çıxarmayacaq. Mən düşünürəm ki, indiki halda büdcəyə dəyişiklik etmək zaman baxımından doğru deyil və bir qədər gözləmək lazımdır. Təkcə neftin qiymətini deyil, digər tendensiyaları da izləmək lazımdır ki, il ərzində bir dəfə dəyişiklik olsun. Yoxsa ilin əvvəlində bir dəfə, ortasında bir dəfə dəyişiklik olsa bu əlverişli deyil".

**Qubad İbadoğlunun sözlərinə görə, idarəetmə xərclərində də çox ciddi ixtisarlar etmək mümkündür:** "Məsələn, variantlardan biri o ola bilər ki, yerli icra hakimiyyətləri ləğv olunsun, onsuz da yerlərdə bələdiyyə fəaliyyət göstərir. Yerli icra hakimiyyətlərinin saxlanılması üçün milyonlarla manat vəsait nəzərdə tutulur. Həmin xərclərin ləğv olunması büdcənin optimallaşmasına gətirib çıxara bilər. Həmçinin paralel dövlət strukturlarının ləğvi də gündəmdədir. Düşünürəm ki, dövlət aparatları həddindən artıq şişirdilib və buna külli miqdarda vəsait xərclənir. Hesab edirəm ki, hüquq-mühafizə orqanlarından Müdafiə Nazirliyi, Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, məhkəmə hakimiyyəti orqanlarından da ixtisarlar etmək mümkündür. Məsələn, Rusiya buna getdi və daxili işlər orqanlarından 10 min nəfəri ixtisar etdi. Bu yolla büdcəyə qənaət edildi".

❑ Nərgiz LİFTİYEVA

## Türkiyə Azərbaycan vətəndaşlarına viza rejimi tətbiq edəcək

Türkiyə 89 ölkənin vətəndaşlarına viza rejimi tətbiq edəcək. Bu haqda Türkiyə KİV-i məlumat yayıb.

Məlumata görə, viza rejimi tətbiq ediləcək dövlətlər arasında Azərbaycanla yanaşı, Gürcüstan, İran, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Rusiya, Tacikistanın da adları var.

Məlumata görə, viza rejimi 2016-cı ilin iyunundan tətbiq ediləcək.

Qeyd edək ki, viza rejiminin tətbiqi Avropa İttifaqının Türkiyə qarşısında qoyduğu tələblərdəndir.

# Rəsmi Bakı "erməni soyqırımı"na dair qanun layihəsinə niyə susur?

### Yevda Abramov: "Ciddi münasibət bildirmək lazım deyil"
### Hikmət Hacızadə: "Ölkəmiz tərəfindən mütləq müraciətlər olmalıdır"

**Bir qrup rusiyalı deputatın "erməni soyqırımı"nı inkar edənlərin cəzalandırılması ilə bağlı Rusiya Dumasının spikeri Sergey Narışkinə etdikləri müraciət ətrafında müzakirələr getdikcə qızışır. Əsasən "Ədalətli Rusiya" partiyasının üzvləri olan deputatların müraciətindən sonra Xocalı soyqırımı yaxınlaşdıqca, ermənilər bu qanun layihəsinin qəbul edilməsi üçün dəridən-qabıqdan çıxırlar. Bir növ bununla əllərinə düşmüş şansı həyata keçirmək üçün Xocalı faciəsinin üzərinə kölgə salmaq istəyirlər.**



Xüsusilə Rusiya-Türkiyə münasibətlərinin gərginləşməsi fonunda qardaş ölkəyə təsir etmək üçün rus deputatlarının müraciətlərinin Rusiya Dumasında qəbul ediləcəyi ilə bağlı narahatedici xəbərlər yayılmaqdadır. Rəsmi Bakının bu məsələdəki susqunluğu narahatçılığı daha da artırır. Təsadüfi deyil ki, artıq rus deputatlarının Dumaya müraciətlərindən iki aya yaxın vaxt keçməsinə baxmayaraq, Azərbaycan hökuməti bununla bağlı hələ də rəsmi mövqe bildirməyib. Doğrudur, qanun layihəsinin nə zaman müzakirəyə çıxarılacağı məlum deyil. Amma istənilən xoşagəlməz hal baş verə bilər. Çünki qanun layihəsi müzakirə edilərsə, onun qəbuluna səsverəcək deputatların əksəriyyətinin ermənipərəst olduğu heç kəsə sirr deyil.

Heç şübhəsiz ki, bu məsələdə Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun da fəaliyyəti çox önəmlidir. Amma bu qurum da hələ ki bu məsələdə istənilən mövqeyi əks etdirmir. Bu qurumun Rusiya Dumasına müraciət etməli olduğu halda rəsmi mövqe sərgiləməməsi başadüşülən deyil.

**Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, yəhudi əsilli Yevda Abramov müraciət etməyə ehtiyac olmadığı qənaətindədir:** "Rusiya bəyəm bu məsələni tanıyır? Mənə elə gəlir ki, bu məsələni həddindən çox qızışdırmaq, yaxud gündəmə gətirmək lazım deyil. Heç nə məsləhət görmürəm. Xüsusi qruplar hər dəfə beynəlxalq aləmdə ölkələr arasında münasibətləri qızışdırmaq üçün bu tipli məsələlərdən istifadə edirlər. Ölkələr arasında bazarlıq etmək istəyirlər. Bu baxımdan bu məsələyə ciddi münasibət bildirmək lazım deyil. Onlar heç nə edə bilməzlər. Nəinki Rusiyada, digər ölkələrdə də Ermənistan məsələsinə görə hazırlıqlar aparırlar. İnanmıram ki, Rusiya buna ciddi yanaşsın. Sadəcə, çalışırlar ki, bu məsələ qızışsın, digər problemlər kölgədə qalsın".

**Azərbaycanın Rusiyadakı sabiq səfiri, politoloq Hikmət Hacızadə hesab edir ki, dövlət səviyyəsində bu məsələ ilə bağlı qonşu ölkəyə müraciət ünvanlanmalıdır:** "Hər səviyyədə müraciətlər edilməlidir. Həm deputatlarımız, həm tanınmış şəxslərimiz, həm də Xarici İşləri Nazirliyi məsələyə mütləq münasibət bildirməlidir. Ya nota, ya da bəyanat verilməlidir. Qeyd etmək istəyirəm ki, o qanunun heç bir gücü olmayacaq. Çünki Avropa Məhkəməsi belə qanunların düzgün olmadığını və Avropa Konvensiyasına uyğun gəlmədiyini təsdiqləyib. Bununla bağlı məhkəmə qərarı qəbul edib. Bu qanunun heç bir qüvvəsi olmayacaq. Amma bununla belə, ölkəmiz tərəfindən mütləq hərtərəfli müraciətlər olmalıdır".

Məsələ ilə bağlı Xarici İşlər Nazirliyinin mövqeyini öyrənməyə çalışsaq da, mümkün olmadı. Zənglərimizə cavab verən tapılmadı.

Qeyd edək ki, deputatların Dövlət Dumasına müraciətlərində kifayət qədər ciddi cəza tədbirlərinin görülməsi nəzərdə tutulur. Partiya üzvləri "soyqırım"ı inkar edənləri 5 il müddətinə azadlıqdan məhrum etməyi, yaxud onları 500 min rubl (8 min 50 manat) məbləğində cərimələməyi istəyirlər. "Soyqırım" faktını inkar etməyə, eyni zamanda "bu cinayətlərin" təqdir edilməsinə görə 300 min rubl (4 min 830 manat) və ya 2 il ərzində əməkhaqqı dəyərində cərimələməklə, yaxud 3 il müddətinə azadlıqdan məhrum etməklə cəzalandırmaq təklif edilir. Əgər bu, kütləvi informasiya vasitələrinin köməyi ilə edilibsə, cərimənin ən yüksək həddini 500 min rubla (8 min 50 manat) qədər artırmağın mümkün olduğu bildirilib. Belə olan halda azadlıqdan məhrum olma müddəti isə 5 ilə qədər artırıla bilər.

❑ Cavanşir ABBASLI

# "Hökumət yaranan vəziyyətlə bağlı tədbirlər hazırlayır"

## Əli Məsimli: "Süni qiymət artımına görə Azərbaycan ailələri ildə üst-üstə 180 milyon manat itirirlər"

**Manatın və neftin dəyərsizləşməsi Azərbaycan vətəndaşlarını kifayət qədər çətin situasiya ilə üz-üzə qoyub. Mövcud vəziyyətdən çıxmağın yolları haqqında ən müxtəlif təkliflər səslənir, çağırışlar edilir. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Əli Məsimli ilə durumun təhlilinə yönəlmiş söhbəti sizə təqdim edirik:**



***- Deputat həmkarınız Vahid Əhmədov bizə bildirib ki, Əli Məsimli ilə birgə hökumətə təkliflər göndərib. Maraqlıdır, o təkliflərdə konkret nələr var?***

- Təbii ki, təkliflərimiz əhalinin xeyrinədir. Bu, müzakirələr qapalı iclasda aparıldığından, açıqlamanı indi yox, təkliflər paketimiz üzə çıxanda verəcəyik.

***- İqtisadçı ekspert Azər Mehtiyev deyib ki, hökumətin nədənsə narahat olduğu görünmür. Doğrudanmı belədir? Siz hökumətlə təmasda olursunuz, hökumət nəyi gözləyir və niyə narahat deyil?***

- Bəlkə də kənardan elə görünür. Amma realda belə deyil. Hökumət devalvasiyadan sonra Azərbaycanda yaranan vəziyyətlə bağlı tədbirlər hazırlayır. 21 dekabr devalvasiyasından sonra durum heç də asan deyil ki, standart təkliflərlə vəziyyətdən çıxmaq mümkün olsun. Məncə, 21 dekabra qədər hökumət hansısa formada toplantı keçirib, 21 dekabr devalvasiyasının nəticələrini yumşaltmaq üçün tədbirləri özündə əks etdirən planı müzakirə etməli və devalvasiyanın səhəri günü bunu xalqa açıqlamalı idi. Düşünürəm ki, yaxınlarda 2015-ci ilin yekunlarına dair müşavirədə sözügedən istiqamətlərdə görülməsi zəruri olan işlər açıqlanacaq.

***- Neft ucuzlaşmaqda davam edir. Bu, neftdən asılı ölkə üçün heç də yaxşı perspektiv vəd etmir...***

- Son illər Azərbaycan iqtisadiyyatında neft amilinin rolu azalmağa başlasa da, hələ də kifayət qədər yüksək olaraq qaldığından, neftin qiymətinin aşağı düşməsi nəticəsində, dolayısı ilə dünya iqtisadiyyatında gedən proseslər Azərbaycan iqtisadiyyatına təsirsiz ötüşmür. Azərbaycanın ümumi daxili məhsulunun 35%-dən çoxu, büdcə gəlirlərinin 60%-ə qədəri, xarici ticarətin 90%-dən çoxu neft amili ilə bağlı olduğundan, neft ixracından daxil olan gəlirlərin, deməli, Dövlət Neft Şirkətinin, Azərbaycanda çalışan xarici neft şirkətlərinin, həm də Dövlət Neft Fondunun gəlirlərini azaldır. Azərbaycan əksər enerjidaşıyıcılı ölkələrdən biri kimi neftin qiymətinin azalması nəticəsində gözlənilən gəlirlərin xeyli hissəsinin itirilməsi mərhələsini yaşayır. Son illər neftdənkənar sahələr kifayət qədər yüksək sürətlə - ildə 8-10 faiz artsa da, qeyri-neft sektorundakı bu cür yüksək artım templəri hesabına Azərbaycan iqtisadiyyatında müsbət dinamizm davam etsə də, bu iş lazım olduğundan xeyli gec başladığından, hələlik həmin sahələrin gəlirləri itirilən böyük neft gəlirlərini kompensasiya etməyə qadir deyil. Bu isə bütövlükdə ölkə iqtisadiyyatına, onun real, maliyyə və sosial sektoruna mənfi təsir göstərir. Ən ciddi proseslər isə manatın bir il ərzində iki dəfə devalvasiyaya uğraması nəticəsində yaranan çətinliklərdən doğur.

***- Gerçəklik belədir ki, əhali bu gün gərginlik içindədir. Manatın sürətlə dəyərdən düşməsi və zəruri istehlak mallarının qiymətinin qalxması halında orta statistik azərbaycanlıya təcrübəli iqtisadçı kimi hansı məsləhətlər verə bilərsiniz? Məsələn, ilk 2-3 təklifiniz nə ola bilər?***

- Qiymət artımı əvvəlcə xaricdən gələn mallar və xaricdən gələn xammal və material əsasında istehsal olunan mallardan başlayır, amma bir müddətdən sonra həmin meyllərin təsiri ilə yerli malların qiymətləri də xaricdən gətirilən malların qiymət artımı arxasınca sürüklənməyə başladığından, yerli mallar da bahalaşmağa başlayır. Amma avtomatik yox, bir müddətdən sonra. Ona görə də manatın ucuzlaşmasından dərhal sonra əksər malların qiymətlərinin 50 faiz artmasını, yəni cəmi bir gün sonra operativ surətdə Azərbaycanın özündə istehsal olunan malların da kəllə-çarxa qalxmasını düzgün hesab etmirəm. Qiymət artımı 21 dekabrdan sonra haqqı ödənilərək gətirilmiş mallardan başlamalıdır. Yoxsa bütün ölkələrdə neçə faiz devalvasiya olursa, həmin faiz qədər də inflyasiya olardı. Digər ölkələrin təcrübəsinə baxsaq, görərik ki, əslində belə deyil. Yəni əgər ölkədə, məsələn, 20 faiz devalvasiya olursa, məhz həmin ölkənin özündə istehsal olunan malların ümumi istehlakda payının və ödəmə qabiliyyətli tələbin təsiri ilə bu heç də 20 faiz səviyyəsində inflyasiyaya, yəni ümumi qiymət artımına səbəb olmur. Yeri gəlmişkən, bizdə ödəniş qabiliyyətli tələbi nəzərə alan yoxdur. Belə ölkələrdə 20 faizlik devalvasiya fonunda 6-8 faiz inflyasiya yaranır. Bizdə də monitorinqlərin dairəsi genişləndirilməli, təbii qiymət artımı ilə süni qiymət artımı bir-birindən fərqləndirilməli və süni qiymət artımının qarşısı alınmalıdır. Çünki süni qiymət artımına görə Azərbaycan ailələri ildə öz büdcələrində üst-üstə 180 milyon manat itirirlər. Bununla yanaşı, dövlət təbii qiymət artımının əhaliyə vurduğu ziyanı kompensasiya etməkdən ötrü əmək haqqı, pensiya və digər ödənişləri artırmalıdır. Aztəminatlı təbəqənin sosial müdafiəsi istiqamətində ünvanlı sosial yardım alanlara əlavə olaraq birdəfəlik 50 manat verilməsi kimi sosial xarakterli tədbirləri xüsusən də çoxuşaqlı ailələrə münasibətdə davam etdirməlidir.

***- Normalda hökumət başçısı bu cür kritik vəziyyətdə proseslərin önündə görünməlidir. Ancaq Azərbaycan vətəndaşları ölkənin baş nazirini görə bilmir. Şəxsən siz Artur Rasi-Zadəni son dəfə nə zaman görmüsünüz? Ümumiyyətlə, nəhayət, hökumətdə ciddi islahatların vaxtı çatmayıbmı?***

- Sualın fərdi hissəsini ötürməklə cavab verə bilərəm. Axı mən də baş nazir olmuşam və yazılmamış qanun, yəni təbii hisslər var ki, kolleqa haqda yaxşı nəsə demək istəmirsənsə, - hərçənd bir insan kimi yaxşısına çox şey demək olar - heç olmasa, pis də demə. Amma idarəetmənin təşkilatı strukturu həm sahə prinsipindən funksional prinsipə keçmək, həm kadr, həm də neft pullarını geninə-boluna xərcləməyə öyrəşmiş hökumət modelindən neftsiz də yaxşı qazanmağı, qazandığını səmərəli şəkildə xərcləməyi, bir hissəsinə qənaət etməyi, dünyada və ölkə iqtisadiyyatında gedən proseslərə operativ və peşəkarcasına reaksiya verməyi bacaran hökumət modelinə keçmək obyektiv tələbata çevrilib. Artıq bu istiqamətdə islahatlar başlayır. Bundan ötrü Nazirlər Kabinetinin fəaliyyətinin gücləndirilməsinin konseptual əsasları, hüquqi, maliyyə təminatı və təşkilati tədbirləri özündə əks etdirən məqsədli proqram hazırlanıb həyata keçirilməlidir.

***- İqtisadçı alim Qubad İbadoğlu deyib ki, Azərbaycan hökumətinə təqdim etmək üçün təkliflər paketi hazırlayır. Necə bilirsiniz, hökumət bu kimi təkliflərdən istifadə edə bilərmi?***

- Tam müsbət notda onu bildirmək istərdim ki, əlbəttə, hökumət xüsusən indiki məqamda bütün mütəxəssislərin Azərbaycana tətbiq edilməsi mümkün olan təkliflərindən faydalanmalıdır. Onların bir hissəsi mütəxəssislərə məlum ümumi məqamlardan ibarət olsa da, həmin yöndə fikirləşməkdən ötrü zəngin material verən təkliflər də yetərincədir. Düzdür, bəzi siyasətçilər həmin mütəxəssislərin intellektual mülkiyyəti olan çox dəyərli təkliflərini götürüb, onlara hökumətin ünvanına söyüş-təhqir qatmaqla, öz adlarından cəmiyyətə sırımağa çalışırlar ki, "biz də varıq". Amma reallıq hisslərini itirməyən hər kəs çox yaxşı bilir ki, həmin təkliflər Qubad bəy də daxil olmaqla, üzdə olan bir neçə iqtisadçı və digər mütəxəssislərimizin - Vahid Əhmədov, Sabit Bağırov, Saleh Məmmədov, Azər Mehtiyev,Vüqar Bayramov, Samir Əliyev, Natiq Cəfərli, Rövşən Ağayev, Zöhrab İsmayıl və digər mütəxəssislərin zəhmətinin məhsuludur. Bu qəbildən olan bütün təklifləri sistemləşdirmək və tətbiq edilməsi mümkün olanlardan istifadə etmək hökumətin xeyrinə olar...

❑ **Elşad PAŞASOY**



# ABŞ-a qarşı sanksiyalar layihəsi Milli Məclisin Aparatında

**"ABŞ-da insan hüquqlarının vəziyyəti haqqında" qanun layihəsi Milli Məclis Aparatına təqdim olunub. Bu barədə "Report"a layihənin müəllifi, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Rövşən Rzayev məlumat verib. O bildirib ki, layihə artıq Milli Məclis Aparatında qeydiyyata alınıb.**

R.Rzayev deyib ki, bu layihənin Azərbaycan-ABŞ hökumətlərarası münasibətlərə aidiyyəti yoxdur: "Qanun layihəsinin təqdimatı zamanı da dedim ki, hökumətlərarası münasibətlər yüksək səviyyədədir. ABŞ və Azərbaycanın parlamentariləri dövlətlərin müsbət münasibətlərinin qarşılıqlı maraqlar çərçivəsində inkişafına öz töhfələrini verməlidirlər.

Mənə elə gəlir ki, hökumətlərarası münasibətlər mütəmadi olaraq inkişaf edəcək. Parlamentarilər də addım atarkən düşünməlidirlər. ABŞ Konqresinin üzvü Kris Smitin hazırladığı və Azərbaycana sanksiyalar tətbiq olunmasını nəzərdə tutan qanun layihəsi qəbul edilərsə, Dağlıq Qarabağ probleminin həllində, ümumiyyətlə, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında çox böyük əngəllərə gətirib çıxara bilər. ABŞ-da yaşayan ermənilər bu kimi layihələrin həyata keçməsində çox maraqlıdırlar. Çünki son nəticədə onlar Ermənistanın işğalçı siyasətinə dəstəklərini verirlər. Ermənilər Azərbaycana zərbə vurmağa çalışırlar".

Komitə sədrinin müavini ABŞ Prezidenti Barak Obamanın Azərbaycan Prezidenti İlham Əliyevi bu il Vaşinqtonda keçiriləcək IV Nüvə Təhlükəsizliyi Sammitinə dəvət etməsini də şərh edib: "Azərbaycan Prezidentinin ABŞ Prezidenti ilə işgüzar münasibətləri yüksək səviyyədədir və artan xətlə gedir. Düşünürəm, bundan sonra da belə olacaq. Amma mən sadaladığım səbəblərə görə birmənalı olaraq, öz mövqeyimdə qalıram".



# Cüdo yarışının sponsoru Fatmanisə xala

Zamin HACI
zaminhaci@gmail.com

**İnterpol xətti ilə dünyada axtarışa verilən cinayətkar sayında ana yurdumuz keçmiş SSRİ və region ölkələri arasında ancaq Rusiyadan geri qalırmış. Təsəvvür edin, Azərbaycan 318 vətəndaşının tutulub təhvil verməsi üçün dünya xalqlarına müraciət etmişdir. Bu rəqəm Ukraynada 311 nəfərdir. İran 12, Gürcüstan isə 88 nəfəri axtarırmış.**

Müqayisə daha aydın olsun deyə əhali sayına, necə deyərlər, hər min nəfərə düşən cinayətkara diqqət eləməliyik. Ukraynanın əhalisi 45 milyon nəfərə yaxındır. Azərbaycanda isə 10 milyondur. Loru dildə desək, beynəlxalq aləmdə bizim cinayətkarlarımız ukraynalı cinayətkarları azı kəmiyyət baxımından basıb döyər. Qürur duyuruq, ayrı nə edə bilərik. Onsuz vətənimiz son illərdə xaricə ancaq neft və cinayətkar ixrac edirdi. İndi neft qiymətdən düşüb, barı ümid eləyək quldurlarımızın xaricdə hörməti düşməsin. Şair demişkən, qoy millətdə ruh yaşasın!

Açığı, son günlər devalvasiya, bahaçılıq, iqtisadi böhran üzündən kriminalın artması gündəmdədir, vətəndaşlar bu sarıdan çox narahat olurlar, deyirlər daha gecə-gündüz küçələrdə gəzib dombalaq aşa bilməyəcəyik, elə mən özüm də dünənki yazımda bu narahatlığın üzərinə bir az neft tökmüşəm. Yerim çatmadı, ancaq indi fikrimi tamamlayaraq bildirim ki, əslində mən cinayətkarlığın devalvasiyadan sonra artması fikrini bölüşmürəm. Bizdə kriminal həmişə yüksək səviyyədə olub. Sözün hər anlamında yüksək səviyyədən söhbət gedir. İzah edim.

Örnək üçün, son 10 ildə 100 milyard dollardan artıq neft pulunun Azərbaycana gəldiyi bildirilir. Hələ bu rəsmi hesab-kitabdır, biz də ancaq bunu nəzərə alaq. Bu pulların lap hesab edək 10 milyarda yaxını qızıl-platin örtüklü yolların çəkilməsinə sərf olunub. 10 milyardı daş parkları, sidik püskürən fəvvarələr, daş hasarlar və yerli icra başçılarının sutenyorluğu ilə fəaliyyət göstərən rəsmi fahişəxana-idman komplekslərinin yaradılmasına gedib. 10 milyardı yazıram analoqu olmayan ordumuz üçün dayandoldurum tüfəngləri alınmasına, lap 10 milyardı da verək pensiyaçılara, qaçqınlara və Strasburqda kilsənin remontuna. 10 milyard isə Avropa Oyunları apardı, it aparan olsun. Bəs bunun qalan 50 milyardı hanı? Vallah, nə qədər israfçılıqla xərclənsən belə heç bir oğru-quldur bu qədər pulu belənçik dağıda bilməzdi.

Təbii, indi rejim özü öz oğrularının bəzilərini tutub dama salıb, proses gedir. Ancaq bütün hallarda o qədər oğurluq və quldurluq hadisələri vaxtında uçota alınsaydı indi biz devalvasiyadan sonra bir-iki nəfərin evinin soyulmasına ciddi hadisə kimi baxmazdıq. İndiki oğurluqlar böyük neft pulları dövründəki oğurluqların yanında çox xırım-xırda əməllərdir, dəvənin yanında milçək kimi bir şeydir.

Müqayisə eləmişkən, bir tragikomik durumu da yazaq. Azərbaycan sən demə, cüdo üzrə dünya çempionatını keçirmək üçün beynəlxalq federasiyaya ərizə veribdir. Ölkənin pulsuz, kasıblamış vaxtında, insanların böhranla əlləşdiyi çağda hakimiyyətin bu əcaib niyyətinə yalnız bu adı vermək olar: "Keçi can hayındadır, qəssab piy axtarır". Və bu cüdo yarışı ərizəsi ilə eyni vaxtda küçə ticarətçilərinin 80 manat cərimə olunması haqda qanun qayırıblar. Tam biabırçılıqdır. Bizim uşaqlar oxuyan məktəbin qabağında 4-5 qarı göyərti, qatıq-filan satır. Hər dəfə polislərə bir-iki manat verib gündəlik dolanışıqlarını çıxarırdılar, indi 80 manatlıq cərimədən sonra gərək rüşvəti qaldırsınlar.

Dünyada daha hansı ölkə var ki, göyərti satan imkansız qarıları soyub həmin pulla cüdo yarışı qayırmaq istəyir?

---

**ABŞ Konqresindən Azərbaycan hakimiyyətinə sanksiya hədəsinin gəldiyi bir zamanda prezident Barak Obamanın Azərbaycan prezidenti İlham Əliyevi Vaşinqtonda keçirilən dördüncü Nüvə Təhlükəsizliyi Sammitinə dəvət etməsi gündəmin müzakirə mövzusuna çevrilib.**



# Obamanın Əliyevə qəfil dəvətinin siyasi açması

## Politoloqdan maraqlı açıqlamalar gəldi...

Qeyd edək ki, belə bir dəvətin gəldiyini Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin rəhbəri Novruz Məmmədov iki gün öncə özünün twitter bloqunda yazıb.

N.Məmmədov bildirib ki, 3 dekabr 2015-ci il tarixdə ABŞ Prezidenti Barak Obama Azərbaycan Prezidenti İlham Əliyevə məktub göndərib. Ölkə prezidentinə belə bir dəvətin gəldiyi barədə bir ay sonra ictimaiyyətə açıqlama verilməsi maraq doğurur. Ekspertlərin fikrincə, ola bilsin hakimiyyət hansısa proseslərin gedişini gözlədiyindən bu cür ciddi informasiyanı 1 ay açıqlamayıb.

ABŞ-la Azərbaycan arasında münasibətlərin gərgin olduğu isə sirr deyil. Konqresin Helsinki komissiyasının həmsədri Kristofer Smitin Bakıya qarşı sərt sanksiyaları nəzərdə tutan qanun layihəsini Konqresin müzakirəsinə təqdim etməsi, sənədin gələn ay müzakirəyə çıxarılacağı barədə xəbərlərin yayılması fonunda Obamadan məlum dəvətin gəlməsinin siyasi anlamı nədir? Bu dəvət və Azərbaycan prezidentinin Vaşinqtona getməsi başa çatmaq üzrə olan 8 illik Barak Obama administrasiyası ilə soyuq münasibətlərin düzəlməsinə səbəb olacaqmı?

**Politoloq Qabil Hüseynli öncə bildirdi ki, nüvə silahlarının ləğv edilməsi, nüvəsiz dünya uğrunda mübarizə aparan dövlətlər nüvə təhlükəsizliyinə dair dörd ildən bir toplantı keçirirlər. Bu toplantıya dəvət edilən dövlətlər, əvvəla, nüvə silahı yaratmayacağı, nüvə silahından istifadə etməyəcəyi barədə konvensiyanı imzalamış dövlətlər olurlar. Eyni zamanda Nüvə təhlükəsizliyinə dair müşavirədə iştirak etməklə nüvəsiz dünya uğrunda çağırışlara qoşulurlar:** "Apreldə keçiriləcək toplantı dördüncüdür. Nüvə təhlükəsizliyinə dair hər bir sammitdə təhlükəsiz dünya uğrunda mübarizəyə dair hər hansı sənəd qəbul edilir. Orada iştirak eləyən dövlət başçıları da onu imzalayırlar. Bu gün nüvə təhlükəsi yenidən dünyanı təhdid etməyə başlayıb. Əsasən də Rusiyanın tez-tez nüvə silahından istifadə edə biləcəyi və yaxud da bu yaxınlarda Şimali Koreyada hidrogen bombasının sınaqdan keçirilməsi dünyada nüvə silahı uğrunda mübarizənin dayanmadığını göstərir. Ona görə də ABŞ-ın təşəbbüsü ilə Vaşinqtonda məlum sammit keçirilir. Bu, dünya üçün lazımlı tədbirlərdəndir. Azərbaycan nüvə silahına malik olmayan dövlətdir. Eyni zamanda Azərbaycan heç vaxt nüvə silahına can atmayıb, nüvə silahı istehsal etməmək, nüvə silahından istifadə etməmək barədə beynəlxalq konvensiyaya qoşulub. Bu, Azərbaycanın xoş niyyətini, sülh, əmin-amanlıq tərəfdarı olduğunu göstərir. Yəqin Barak Obama bunları nəzərə alaraq cənab İlham Əliyevi həmin sammitə şəxsən dəvət edib. O sammitə çox dövlətlərin prezidentləri dəvət edilir, amma mən inanmıram ki, oraya, məsələn, Şimali Koreya dəvət edilsin. Nüvə silahına can atan, nüvə silahlarından istifadə etməmək barədə beynəlxalq konvensiyanı imzalamayan dövlətlərin başçılarını oraya dəvət etmirlər".

**Politoloqun sözlərinə görə, bu sarıdan Azərbaycan prezidentinin dəvətinin siyasi çalarları var:** "Bu, həm Azərbaycanla, həm də iki dövlət arasındakı münasibətlərlə bağlıdır. Mən güman edirəm ki, bu sammitdə Barak Obama ilə İlham Əliyevin görüşmək imkanları da yaranacaq. Bu görüş zamanı ikitərəfli münasibətlərin bütün aspektləri müzakirə edilə bilər. Bu münasibətlərdə yaranmış soyuqluğu aradan qaldırmaq üçün hansı addımların atılması barədə ümumi razılığa da gəlinə bilər. Doğrudur, ABŞ Konqresində Azərbaycana qarşı sanksiyaların tətbiq edilməsi barədə Smitin hazırladığı qanun layihəsi bu prosesləri bəlkə də müəyyən qədər qabaqlayacaq, bəlkə də eyni vaxta düşəcək. Lakin hər halda, ona qədər Azərbaycan da müəyyən addımlar ata bilər. Arif və Leyla Yunuslar məhkəmə zalından azadlığa buraxıldığı kimi, indi də İntiqam Əliyevin apelyasiya şikayətinə baxılacaq. Güman edirəm ki, İntiqam Əliyev də azadlığa buraxıla bilər və bundan sonra siyasi məhbus adlandırılan digər şəxslərin işlərini apelyasiya məhkəməsində müzakirə etməklə azadlığa buraxa bilərlər və beləliklə də Konqresdəki həmin qanun layihəsinin qəbul edilməsinə ehtiyac qalmaz. Ən azından Azərbaycan aprel ayına qədər bu məsələlərin bir çoxunu həll etməklə o sammitə qatılarkən Barak Obama ilə mükalimə üçün tutarlı faktlar əldə edə bilər. Bu faktlardan istifadə edərək soyuqlaşmış, hətta bəzi hallarda qarşıdurma səviyyəsinə çatmış ABŞ-Azərbaycan münasibətlərini yenidən strateji tərəfdaşlıq münasibətləri səviyyəsinə qaldırmaq olar".

**Q.Hüseynli ABŞ-dan sanksiya hədəsi ilə eyni vaxtda Barak Obamanın Azərbaycan prezidentini Vaşinqtona dəvət etməsini "qamçı-kökə siyasəti" adlandırmağın yanlış olduğunu vurğuladı:** "Azərbaycan elə dövlət deyil ki, məhz həmin siyasətlə idarə edilsin. Güman edirəm ki, bu, təbii bir prosesdir. Dünya dövlətləri başçılarının sammitidir və Azərbaycanın oraya dəvət edilməsi də Azərbaycanın təbii hüququ adlandırıla bilər. Bu dəvətin məlum qanun layihəsi məsələsi ilə hansısa əlaqəsinin olduğunu düşünmürəm. Obama Azərbaycan prezidentini oraya dəvət etməklə faktiki olaraq özünün əvvəllər də etibarlı tərəfdaşı olmuş bir şəxsi dəvət eləyib. Ona görə də burada başqa nüans axtarmağın tərəfdarı deyiləm".

**"Bəs Obamanın hakimiyyətdən gedişindən sonra ABŞ-Azərbaycan münasibətlərində müsbətə doğru irəliləyişlər baş verə, rəsmi Bakıya münasibət dəyişə bilərmi? Demokratların namizədi olan keçmiş dövlət katibi Hillari Klinton prezident seçilsə, münasibətlərdə müsbət dəyişiklik gözləniləndirmi" kimi suallarına isə politoloq belə cavab verdi:** "Barak Obama kifayət qədər liberal, demokratik xarakterli adamdır. Onun dövründə Azərbaycana münasibət heç də kəskin olmayıb. Ayrı-ayrı quzğunlar var ki, Obama onların Azərbaycana qarşı hərəkətlərini müəyyən qədər məhdudlaşdıra bilib. Hillari Klinton da liberal, demokratik xarakterli siyasətçidir. Amma mən inanmıram ki, Klinton Obamadan daha yaxşı performans sərgiləyə bilər və Azərbaycanla münasibətləri daha yüksək səviyyəyə qaldıra, münasibətləri istiləşdirə bilər. Barak Obama dövründəki Azərbaycan-ABŞ münasibətləri tarixə düşən münasibətlər olacaq".

Xatırladaq ki, Nüvə Təhlükəsizliyi Sammiti aprelin 12-13-də keçiriləcək. Sammitə dünyanın 40-dan artıq ölkəsinin prezidentinin dəvət ediləcəyi gözlənilir. MDB ölkələrindən artıq Qazaxıstan prezidenti Nursultan Nazarbayevin sammitə dəvət aldığı məlumdur. ABŞ Milli Təhlükəsizlik Şurasının rəsmi nümayəndəsi Mayk Hammer deyib ki, sammitdə İran və Şimali Koreyanın nüvə proqramları ilə bağlı məsələlər müzakirə olunacaq. 2010-cu ildə Vaşinqtonda keçirilən nüvə sammitinə Azərbaycan dəvət olunmamışdı.

❑ **Etibar SEYİDAĞA**

**Azərbaycan parlamentinin eks-spikeri, hazırda ABŞ-da mühacirətdə yaşayan Rəsul Quliyev Bakıya qayıtması üçün hakimiyyətə müraciət edib. Müraciətə isə mənfi cavab verilib. Bu barədə "Yeni Müsavat"a daxil olan xəbərdə deyilir ki, keçmiş YAP-çı deputat Rza İbadovun üzərindəki cinayət işinin götürülməsi və onun ötən ay Azərbaycana buraxılması eks-spikerdə ona da "yaşıl işıq" yandırıla biləcəyi ümidini yaradıb. Ancaq Rza İbadova və bir neçə il öncə vətənə qayıdışına şərait yaradılan sabiq prezident Ayaz Mütəllibova göstərilən münasibət onun şəxsində təkrarlanmayıb.**

# Hakimiyyət Rəsul Quliyevin Azərbaycana qayıtmaq istəməsinə "yox" deyib

## Sərdar Cəlaloğlu: "Lideri olmayan qruplar var ki, onlar zaman yetişən kimi Rəsul Quliyevin ətrafında toparlana bilərlər"


Rəsul Quliyev

**R.Quliyevlə uzun illər eyni partiyada fəaliyyət göstərmiş keçmiş silahdaşı ADP sədri Sərdar Cəlaloğlu bildirdi ki, Rəsul Quliyev əvvəlki nüfuzunu nə qədər itirsə də, Azərbaycanda siyasi hadisələrə təsir etmək imkanları var. Rəsul Quliyevi Rza İbadovla, Ayaz Mütəllibovla müqayisə eləmək yanlışdır. Nə Rza İbadov, nə də Ayaz Mütəllibov ölkə siyasətinə Rəsul Quliyev qədər təsir eləmək imkanında olmayıblar. Hakimiyyət də bunu nəzərə alır:** "Rəsul müəllimin ölkəyə qayıtmasını əngəlləyən məqamlardan biri də hakimiyyətin ona şəxsi münasibətinin pis olmasıdır. 20 ilə yaxın vaxt keçir, lakin Rəsul Quliyevlə pozulmuş şəxsi münasibət hələ də düzəlmir. Rəsul Quliyev həm də şəxsi münasibətlərə görə vəzifədən və ölkədən getmişdi. 20 ildir həm də buna görə onun ölkəyə gəlməsinə imkan verilmir. Hələ də onu bağışlaya bilmirlər".

**"Bəs Rəsul Quliyevin hansı təsir imkanları qalır ki, hakimiyyət onun ölkəyə gəlişini təhlükə sayır" sualına isə S.Cəlaloğlu belə cavab verdi:** "Həm regional amil baxımından, həm indiki böhran şəraitində xalqın ümid yeri ola biləcəyindən Rəsul Quliyev diqqəti cəlb edə, xalqın müəyyən bir hissəsinin, eyni zamanda hakimiyyətdəki bir sıra şəxslərin ümid yerinə çevrilə bilər. Hakimiyyət bunu düşünür və ona görə də onu ölkəyə buraxmır. Rəsul Quliyev ilk baxışdan nə qədər zəifləmiş, yıpranmış durumda görünsə də, ölkəyə gəlişindən sonra alternativ qüvvə kimi ortaya çıxmaq imkanları qalır. Siyasətdə ayrı-ayrı fərdlərin əsasən imici rol oynayır. Məsələn, cəmiyyətdə elə adamlar var ki, dəfələrlə Rəsul Quliyevdən güclüdür və xalqa daha çox xeyir verə bilər, amma xalq heç onu tanımır və arxasınca getmir. Amma güclü imici yaradılmış şəxsin arxasınca xalq çox şeylərin fərqinə varmadan gedir. Kütləvi şüur belədir. Xalqın gözünün qabağında nə qədər çox durursansa, bir o qədər adiləşirsən. Rəsul Quliyev isə uzun müddətdir ölkədən gedib, onun kimi liderlərə xalqların münasibəti mistiksasiya ilə bağlıdır. İnsanlar özlərindən uzaqda olan liderlərə hansısa ilahi don geydirirlər və onun haqqında xəyalla yaşayırlar. Rəsul Quliyev də uzun müddətdir ölkədən uzaqda olduğu və ölkəyə buraxılmadığı üçün xalqın müəyyən hissəsinin ürəyində mistikləşib".

**ADP sədri onu da dedi ki, hakimiyyətin içində dar ayaqda Rəsul Quliyevin ətəyindən yapışmaq düşüncəsində olanlar var. Hakimiyyət bunu da bilir:** "Bu cür qüvvələr çoxdur. Lideri olmayan qruplar var ki, onlar zaman yetişən kimi Rəsul Quliyevin ətrafında toparlana bilərlər".

**Bəs iqtidar hansı şərtlər daxilində Rəsul Quliyevi ölkəyə buraxa bilər:** "Yuxarıda xatırlatdığım xüsusi münasibət dəyişməyincə, heç bir şərtin olacağı gözlənilən deyil. Amma ümumən götürdükdə, hakimiyyət ölkənin düşdüyü böhrandan çıxması istiqamətində ciddi addımlar atmaq istəyirsə, Rəsul Quliyev kimi adamların biliyindən, təcrübəsindən ən azı məsləhət səviyyəsində istifadə etməlidir. Rəsul Quliyevə bir vəzifə verilməsə də onu ölkəyə buraxıb iqtisadi böhrandan çıxmaq istiqamətində ideyalarından yararlanmaq olar. İqtidar ona kömək eləmək istəyən istənilən qüvvənin imkanlarından istifadə eləməyə çalışmalıdır. Böhranı subyektiv bəyanatlarla, Siyavuş Novruzovun onu-bunu söyməsi ilə aradan qaldırmaq mümkün deyil. İqtidar öz siyasətini dəyişib cəmiyyəti bu vəziyyətdən çıxarmaq üçün bütün ictimai, siyasi qüvvələri səfərbər eləməlidir. Xaricdə olan təcrübəli vətəndaşlarımızın hamısının imkanlarından istifadə etməlidir. Dünya dəyişib, artıq neft və qaz iqtidarın əlində əvvəlki kimi silah rolu oynaya bilməz. Neçə ki, gec deyil, iqtidar təcili tədbirlər görməlidir".

**Xatırladaq ki, 2015-ci ilin son aylarından başlayaraq bir neçə dəfə Rəsul Quliyevin ölkəyə qayıtmaq istədiyi barədə xəbərlər yayılıb. Ötən il dekabrın 18-də R.Quliyev modern.az-a açıqlamasında da qayıtmaq istədiyini, lakin qayıdışının hansısa şərtlər daxilində olmasını**


Sərdar Cəlaloğlu

**istəmədiyini dilə gətirmişdi:** "Heç vaxt etmədiyim "cinayət" işinə görə əfv olunmağımı xahiş etmərəm. Kiminsə diktəsi ilə müəyyən addımlar atmağa razılıq vermək şərti ilə yaşamaqdansa, ölməyə üstünlük verərəm. Mənə qarşı açılmış "cinayət" işinin əsas müddəaları ilə Azərbaycanı tərk etməzdən bir gün öncə indi sizlərin yaxşı tanıdığınız şəxslərin iştirakı ilə tanış edilmişdim. Yəni "özünü yaxşı aparmasan, bu cinayət işi açılacaq" xəbərdarlığını almışdım. "Burada yazılanların hamısı yalandır, bunu necə edəcəksiniz" sualıma "sən ağıllı adamsan, bunu necə etməyin çox asan olduğunu bilirsən" cavabı verilmişdi.

Mən xaraktercə dediyim sözə həmişə əməl edən adam olmuşam və belə də qalacağam. Hamı mərhum prezident Heydər Əliyevdən üz döndərəndə mən onu Vəzirov, Mütəllibovun hədə-qorxusuna, terror etmək cəhdlərinə baxmayaraq, axıra qədər müdafiə etdim.

Elçibəy hökumətində də nazirlər bu işi davam etdirdilər, ancaq mən fikrimdən geri dönmədim. Parlament sədri seçiləndə iki cümləlik çıxış etdim. Dedim ki, mən Heydər Əliyevin siyasəti ilə razılaşmayanda istefa verəcəyəm. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrində onu sözün əsl mənasında müdafiə edən nə ərtrafındakılar, nə də nazirləri oldu, yalnız mən oldum. 1996-cı ildə 3 məsələdə bizdə kəskin fikir ayrılığı yarandı. Bu, korrupsiya ilə rüşvət, Qarabağ probleminin həlli və demokratiyanın inkişafı məsələləri idi. Verdiyim sözə əməl edib, dava- qırğınsız, xoşluqla istefa verib getdim. Xaricdə yaşadığım dövrdə heç vaxt zorla hakimiyyətin dəyişdirilməsi ideyasını dəstəkləmədim. Mən həmişə bunun əleyhinə olmuşam. Hakimiyyətin məni respublikaya buraxması onun üçün heç bir təhlükə yaratmır".

**Eks-spikerin sonda dedikləri əslində hakimiyyətə "məni ölkəyə buraxın" çağırışı kimi qəbul edilə bilər.**

❑ **Etibar SEYİDAĞA**

# AXCP adı uğrunda məhkəmə çəkişməsi uzun sürəcək

## Razi Nurullayev: "Bir qurumun arxasında sosial baza yoxdursa..."


Razi Nurullayev

**Azərbaycan Xalq Cəbhəsi Partiyasının qeydiyyatı məsələsi müəmmalı olaraq qalmaqdadır. Ötən il sentyabrın 27-də Əli Kərimli qanadı, oktyabrın 18-də isə Razı Nurullayev qanadı qurultay keçirərək, Ədliyyə Nazirliyinə müraciət etsələr də, rəsmi qurum tərəflərin heç birini qeydiyyata almadı və məhkəməyə müraciət etmələrini tövsiyə etdi.**

Nazirliyin qərarından narazı qalan Nurullayev qanadı rəsmi qurumu məhkəməyə versə də, 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsi iddianı təmin etməyib. Nurullayev qanadı indi də Apelyasiya Məhkəməsinə müraciət edib.

Bu barədə müsavat.com-a R.Nurullayevin özü məlumat verib: "Biz sənədləri 1 saylı İnzibati-İqtisad Məhkəməsindən götürüb, Apelyasiya Məhkəməsinə təqdim etmişik. Amma hələ məhkəmənin vaxtı ilə bağlı bizə məlumat verilməyib. Xatırladım ki, Ədliyyə Nazirliyini qeydiyyata alınmamağımızla bağlı məhkəməyə vermişdik. Amma 1 saylı İnzibati-İqtisadi Məhkəməsi müraciətimizi icraata götürmədi və Apelyasiya Məhkəməsinə müraciət edə biləcəyimizi söylədi. Biz də buna uyğun hərəkət etdik".

**Yeni AXCP-nin sədri qeydiyyat məsələsinin uzanmasına da aydınlıq gətirdi:** "Bunu Ədliyyə Nazirliyi, hökumət qurumları daha yaxşı bilər. Amma hazırda məhkəmə çəkişməsidir. Bu uzun sürəcək. Yaxın aylar ərzində məhkəmə çəkişmələri davam edəcək. Apelyasiya Məhkəməsinin cavabından sonra daha aydın fikir söyləyə bilərik. Hüquqi qeydiyyatın nə zaman olacağını bilmirəm. İstənilən halda məhkəmə çəkişməsidir və bu çəkişmədə sona qədər varıq. İndiyə qədər hələ heç bir məhkəmə prosesi olmayıb. Qarşı tərəfin, yəni keçmiş AXCP-nin məhkəməyə müraciət edib-etməməsi ilə bağlı məlumatsızam. Hesab edirəm ki, Əli Kərimli qanadı bununla bağlı heç bir iş aparmır. Ümumiyyətlə, onların mövcudluğunu görə bilmirəm. Qeyri-müəyyən vəziyyətə qalmaqda davam edirlər. Hüquqi təmsilçilikləri yoxdur. Artıq deyə bilərik ki, eyni statusdayıq. Onların fəaliyyətləri yalnız sosial şəbəkələrdə paylaşdıqları statuslarda görünür. Get-gedə daha da zəifləyəcəklər. Bir qurumun arxasında sosial baza yoxdursa, sonu belə olmalı idi. 2016-cı il bir çox siyasətçilərin, o cümlədən Əli Kərimlinin siyasətinin iflası ilidir".

**Nurullayev məhkəmə müstəvisində qeydiyyata alına biləcəkləri ehtimallarından da danışdı:** "Düşünürəm ki, məhkəmə bununla bağlı qərar qəbul edə bilər. Xeyrimizə qərar qəbul ediləcəyinə inanıram. Nə zaman qərar veriləcək, dəqiq bilmirəm".

Qeyd edək ki, Nurullayevin tərəfdarlarından Mikayıl Quliyev şikayəti əsasında həbs edilən Əli Kərimlinin müşaviri Məmməd İbrahimin məhkəməsində şikayətini geri götürüb. Bundan sonra sosial şəbəkələrdə belə iddialar ortaya atılıb ki, şikayətin geri götürülməsinə R.Nurullayev səbəb olub. Bunu gələcək baxımından tərəflər arasında barışıq mühitinin yaradılacağı kimi qələmə verənlər də var.

**Müsahibimiz bu iddialara da cavab verdi:** "Mikayıl bəyin ərizəsini geri götürməsindən xəbərdar oldum və bunun üçün ona təşəkkür də etdim. Gözəl addım atdı. Məmməd İbrahimin həbsdə qalmasının tərəfdarı deyiləm. O, azadlığa qovuşmalıdır. Onun azadlığa çıxması üçün biz tərəfdən ziddiyyətli məqam ola bilməz. Əgər Mikayıl bəyin bu addımı işə müsbət istiqamətdə təsir edəcəksə, sadəcə, çox sevinərik".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 4 (6325) 8 yanvar 2016

# Nemət Pənahlının qızı "Yeni Müsavat"a danışdı

## Xatirə Pənahlı: "Məni sarsıdan həyat hekayəsini bir gün özüm yaşayacağımı ağlıma gətirmirdim"

**Azərbaycan milli azadlıq hərəkatının liderlərindən biri olmuş, Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının həbsindən 5 il ötür. 2011-ci ilin bu günündə həbs edilən partiya sədri hazırda Qobustan həbsxanasında saxlanılır. Yanvarın 4-də Pənahlı ailəsi onunla görüşüb.**

*Görüş barədə "Yeni Müsavat"a məlumat verən N.Pənahlının qızı Xatirə Pənahlı atası ilə bağlı geniş müsahibə vermək istədiyini söylədi. Biz də razılaşdıq. 22 yaşlı Xatirə atası ilə bağlı xatirələrindən, onun səhhətindən, həbs ediləndən sonra atasına yazdığı şeirlərdən və gələcək təhsilindən danışdı.*

***- Xatirə xanım, atanızla uzunmüddətli görüşünüz necə keçdi?***

- Atam şəkər xəstəsidir. Özü də bu xəstəliyi həbs olunandan sonra tapıb. Səhhətini hər dəfə bir az daha pis görürük. Çox düşüb. Saxlanma şəraiti isə onun xəstəliyi ilə qətiyyən uyğun deyil. Havasızlıq, hərəkətsizlik hər dəfə bir az daha səhhətini pisləşdirir. Biz üç aydan bir görüşürük. Hər dəfə görüşəndə bizə baxıb necə sarsıldığını hiss edirəm. Hər birimizlə ayrı-ayrı söhbət elədi, həmişə olduğu kimi, məsləhətlərini, göstərişlərini verdi. Hər dəfə də danışanda deyir ki, diqqətlə qulaq asın, bilmək olmaz burdan sağ-salamat çıxa biləcəm, ya yox. Düzü, bu söz içimi çox acıdır.

***- Sosial şəbəkələrdə yayımlanan "Məhbus atam" şeiriniz diqqətimizi cəlb etdi. Atanıza münasibətiniz bir övladın atasına olan münasibətindən daha ötədir. Nemət Pənahlı sizin nəzərinizdə kimdir?***

- Əslində istənilən bir qız üçün atası onun qəhrəmanıdır. Arxası, dayağı, ömrünün sonuna qədər nazını çəkən tək insan... Ancaq mən atama bir atadan daha çox ustadım kimi yanaşmışam. Atam -anam mənə nağıl əvəzinə Mevlananın Məsnəvisindəki hekayələri oxuyublar. Mən ata -ana eşqindən öncə ilahi eşqlə böyümüşəm. İlk sözüm də nə ata, nə də ana olub. Dilimə ilk Allah kəlməsini gətirmişəm. Qısacası atam mənim üçün azadlıq mücahidindən, qəhrəmandan, siyasətçidən, ən əsası bir atadan çox ustadımdır. Dünyanı dərk edə bilmək yolundakı yeganə ustadım...

***- Sözsüz ki, Nemət Pənahlının övladı olaraq cəmiyyətdə sizə qarşı da münasibət birmənalı olmayıb. Çevrənizdə, oxuduğunuz təhsil ocağında, ümumiyyətlə, ətrafınızda onun qızı olaraq sizə qarşı münasibətdən daha çox nəyə üzülmüsünüz, yaxud sevinmisiniz?***

- Məktəb illərində ən çox dahi Hüseyn Cavidin həyatını, onun qızı Turan xanımın yaşadıqlarını oxuyurdum. O həyat hekayəsi ürəyimi ağrıdırdı. Ömrünü ancaq atasına qurban vermiş və Hüseyn Cavidin qızı, ailəsi olmaq kimi ağır, ancaq şərəfli yükü qız başına tək yüklənməsi bir oxucu kimi məni sarsıdırdı. Ancaq zaman gəldi ki, özüm eyni həyatla üz-üzə gəldim. Halbuki vaxtilə məni sarsıdan bu həyat hekayəsini bir gün özüm yaşayacağımı ağlıma belə gətirmirdim. Yaşadım və yaşadıqca bu həyat mənə daha fərqli gəldi. Hətta Nemət Pənahlının qızı adını eşidərkən insanların üzündəki qorxu məni məyus belə etmədi. İnsan bir yaşantını nə qədər kitablardan oxursa oxusun, onu özü yaşadığı kimi dərk edə bilməz. Mən də yaşadıqca anladım ki, Hüseyn Cavidin vaxtında da çox insan yaşayıb. Turan xanımdan fərqli olaraq milyonlarla qız ailə həyatı qura bilib. Ancaq bu gün yaddaşlarda olan Turan xanımdır. Bu gün insanlar məhz bir vaxtlar qorxudan uzaq gəzdikləri Hüseyn Cavidin abidəsinin qarşısında baş əyirlər. Qürurlu və şərəfli bir ömür hər kəsə nəsib olmur. Ona görə də atamla bağlı yaşadığım heç bir məhrumiyyəti, çətinliyi çətinlik kimi qəbul etmirəm. Əksinə, qürur, fəxr hissi duyuram ki, mən belə bir adamın qızıyam. Həm də cəmiyyət, sadəcə, qorxusuna məğlub olmuş insanlardan ibarət deyil ki...



**"Günahkar bəndələrdən əfv diləmək cahillikdir"**

***- Qafqaz Universitetinin məzunusunuz. Bir yerdə işləyirsinizmi?***

- 2014-cü ildə Qafqaz Universitetinin şərqşünaslıq fakültəsinin ərəb dili bölümünü bitirmişəm. Bilirsiniz, ölkəmizdə iş tapmaq, üstəlik, Nemət Pənahlının qızı və üstəlik, hicablı, bu nə deməkdir... Ona görə də işsizəm. Amma bu il artıq kəsin olaraq Türkiyənin İzmir şəhərində magistr təhsili almaq qərarı vermişəm, İnşallah, Allah nəsib edərsə, təhsilimi orada davam etdirmək fikrindəyəm.

***- Beş ildir ki, atanız həbsdədir, bu illər həyatınızda necə bir iz qoyub?***

- Bəlkə də həyatımızda bundan sonra xoş günlər yaşayacağıq, ancaq atamın olmadığı illər həyatımızdan heç vaxt silinməyəcək. Ən önəmlisi, bu illər yaddaşımızda dəhşətli itkilərlə qalıb. Babama çox bağlı idim. Onunla ürfani söhbətlər edərdik. Atamdan sonra bütün mehrimi ona salmışdım. Ancaq ölümlə tanışlığım təəssüf ki, babamla başladı. Və bu sarsıntıdan uzun müddət çıxa bilmədim. Atamla babamın arasında dəhşətli bağ var idi. Və atam tutulduqdan sonra-baxmayaraq ki, babamın atamdan başqa 7 övladı vardı-o bizim evdən başqa yerdə qalmırdı. Hətta iki ay işığımızı kəsdikləri zaman belə bibilərim və əmim nə qədər təkid etdilərsə belə, bizdən getmədi. Sanki o qaranlıqda bizlə bərabər oturmaq onun ağrısını az da olsa azaldırdı. Dünyasını dəyişdiyi günə qədər biz nə yaşadıqsa bir evin altında, o da bütün dərdimizə şərik oldu. Son anına qədər gözü yolda idi ki, atamı buraxacaqlar. Ancaq təəssüf olsun ki, oğlunun çiynində axirətə köçməyi belə çox gördülər. Babamı xatırlayarkən bir səhnə yadımdan çıxmır. Atama hökm veriləndə babamgil rayonda idi. Atama altı il hökm verildiyi xəbərini rayona aparanda qəddi-qaməti əyilmişdi. Biz otağa girəndə namaz üstündə idi. Xəbəri vermək də anama düşürdü. Namazını bitirib otaqdan çıxdı, körpə uşaq kimi anamı qucaqlayıb ağladı. Nənəmin isə heç ayağa durmağa halı yox idi. Elə anama hey deyirdi ki, hanı Nemət? Niyə tək gəldin?

***- Heç düşünmüşünüz, atam əfv ərizəsi yazsaydı bəlkə də çoxdan evimizdə olardı? Buna görə təəssüf hissi keçirirsinizmi?***

- Tam səmimi deyərəm ki, bu fikir bir anlıq belə nə mənim, nə də ailə üzvlərimizin ağlından belə keçməyib. Atamın həyatına nəzər yetirəndə Həzrəti Yusifin həyatını xatırlayıram. Şərlənib zindana salınması və 7 il həbsdə qalması...Dərk edirik ki, onun həbsi yalnız seçilmiş bəndələrə nəsib olan ilahi bir sınaqdır ki, buna görə günahkar bəndələrdən əfv diləmək sadəcə cahillikdir. Atam haqq yolunda həbs olunub. Demək ki, Allah öz sevimli bəndəsi ilə 6 il xəlvətdə qalmaq istəyib. Əfv etməyə gəlincə isə bu yalnız Allaha məxsusdur. Əgər bir insan tutduğu haqq yol üçün əfv diləsə, haqqı danmış olar. Bunu isə Allah əfv etməz.



***- Nemət Pənahlı haqqında daha çox ustad və siyasi xadim olaraq danışdınız, bəs bir ata və ailə başçısı kimi necə?***

- Atam ailə başçısı kimi çox diqqətli biridir. Türmədə olmasına baxmayaraq, hər bir problemimizlə dərindən maraqlanır. Psixoloji vəziyyətimizi daim özü tənzimləyir. Qızlara qarşı atalar daha həssas olur. Oğlanlarına qarşı isə daha sərt olurlar. Atam da belədir. Sevgi payını isə tam ədalətlə bölür, nə bir zərrə artıq, nə bir zərrə əskik. Mən atamla çox ürfani söhbətlər etsəm də, ailədə özünə qapalı uşaq olmuşam. İç dünyama heç kimi buraxmamışam. Ancaq buna baxmayaraq, atam mənim iç dünyamı həmişə duyub və həmişə də zamanında yetişib. Bu il 31 dekabr bayram günü çox böyük bir sarsıntı keçirdim. Bəlkə də həyatımın ən böyük sarsıntısını. O qədər ki hətta düşünürdüm ki, yəqin ki, dünyanın sonudur. Ertəsi gün atam zəng elədi. Heç nə demədən, heç nə danışmadan bütün əhvalımı hiss etdi. İnanın ki, o anda bütün acılarıma məlhəm olacaq yeganə cümləni işlətdi: "Sən mənim fəxrimsən". O zaman anladım ki, bu həyatda bir qız üçün qalxacaq ən uca məqam atasının fəxri olmaqdır. Və o məqamın şərəfi mənə öz acımı unutdurdu. Bax, Nemət Pənahlı belə bir atadır. Bizdən nə qədər uzaqda olsa da, heç vaxt məsafələr onun ideal ata, ideal ailə başçısı olmasına mane olmayıb.

***- Xatirə xanım, sonda sosial şəbəkələrdə geniş yayılan "Məhbus atam" şeirindən bir hissəni deyə bilərsiniz?***

***- Gözüm yaşı rəvan oldu,***
***Harayıma yetiş atam.***
***Axar sular duran oldu,***
***Dərdimə yan, məhbus atam!***
***Qohum-qardaş da gen gəzdi.***
***Yoxluğun varlığım əzdi,***
***Gizli dərdim yarım sezdi,***
***Əllərini uzat tutam,***
***Göz yaşım sil, məhbus atam!***

❑ **Cavanşir ABBASLI**

# Fuad Qəhrəmanlı ailə üzvləri ilə görüşüb



Fuad Qəhrəmanlı

**Nardaran hadisələri zamanı dövlət əleyhinə çağırışlarda təqsirləndirilərək həbs edilən Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Fuad Qəhrəmanlı saxlanıldığı 1 saylı Bakı İstintaq Təcridxanasında ailə üzvləri ilə görüşüb. Bu barədə "Trend"ə Fuad Qəhrəmanlının vəkili Fəxrəddin Mehdiyev məlumat verib.**

Vəkil bildirib ki, F.Qəhrəmanlının saxlanma şəraitindən heç bir şikayəti yoxdur: "İstintaq Təcridxanasındakı şəraitlə bağlı Fuad Qəhrəmanlının narazılığı yoxdur. Qanunvericilikdə nəzərdə tutulmuş qaydada o, ailəsi ilə telefonla danışır. Onun ailə üzvləri ilə görüşünə artıq icazə verilib".

F.Qəhrəmanlının səhhətində problemlər olduğunu deyən vəkil bildirib ki, müvəkkili bununla əlaqədar dərman qəbul edir: "Fuad şəkər xəstəsidir və qaraciyərində problemləri var. Bununla əlaqədar da ona evdən lazımi dərmanlar çatdırılır və o dərmanları qəbul edir".

# Baş Prokurorluq hüquq müdafiəçisinə xəbərdarlıq etdi



Oqtay Gülalıyev

**"Siyasi Məhbuslarsız Azərbaycan" qeyri-hökumət təşkilatının koordinatoru və Milli Şuranın üzvü Oqtay Gülalıyevə Baş Prokurorluq tərəfindən xəbərdarlıq edilib. "Mən yerli vaxtla saat 17-də Respublika Prokurorluğuna daxil oldum və iki saata yaxın orada qaldıqdan sonra azad buraxıldım.**

Çağırılmağımın səbəbi kimi bu yaxınlarda mənim tərəfimdən yazılmış və çoxsaylı mediada dərc olunmuş yazım göstərildi. Detallı şəkildə məlumat yaymamaqla bağlı iltizama qol çəkdiyimdən geniş danışmayacam. Rəsmi xəbərdarlıq olundu. Bildirdilər ki, məqalədəki bəzi məqamlar dövlət orqanlarının işgüzar nüfuzuna xələl gətirir. Onlara bildirdim ki, yazı mənim fikirlərimdir, qanunlar və fikir azadlığı çərçivəsindədir. İnsanları düşüncəsinə görə ittiham etmək olmaz. Bir də yazılarımı diqqətlə oxuduqları üçün təşəkkür etdim" deyə, Gülalıyev "Turan"a bildirib.

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 4 (6325) 8 yanvar 2016

**Yeni ilin ilk Qarabağ təşəbbüsləri ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikdən gəldi. Məlumatlara görə, Uorlik ABŞ Konqresinin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin sədri Ed Roysla Dağlıq Qarabağla bağlı müzakirələr aparıb. Bu barədə o, özünün twitter səhifəsində yazıb.**





Filipp Bridlav

# Dondurulmuş, yoxsa unudulmuş münaqişə?

## Qarabağ danışıqlarında pat vəziyyəti bu il bitəcəkmi? ABŞ Konqresi konfliktin həllinə yardımçı olacaq; **NATO komandanı:** "Rusiya Qarabağda revanşist siyasət yürüdür..."

"Xarici Əlaqələr Komitəsinə və onun sədri Ed Roysa Dağlıq Qarabağla bağlı müzakirələr aparmağa imkan yaratdığına görə təşəkkür edirəm. Biz münaqişənin həlli istiqamətində müzakirələri davam etdirməyə dair razılıq əldə etdik", - deyə diplomat vurğulayıb.

**Konqresmen Ed Roys isə prezident Barak Obamanı Dağlıq Qarabağda sülhün bərqərar edilməsi üçün irəli sürülmüş təkliflərin həyata keçməsini sürətləndirməyə çağırıb. Belə bir çağırışı o, komitənin təşkil elədiyi, amerikalı vasitəçi və Nümayəndələr Palatasının 10-dan artıq üzvünün iştirak elədiyi qapalı brifinqdə edib.** "Dağlıq Qarabağda zorakılıq son 10 ildə öz apogeyinə çatıb. Təkcə son bir ayda biz ağır hərbi texnika və artilleriyadan istifadə haqda məlumatlar eşitməkdəyik ki, bu da atəşkəs rejiminin birbaşa və kobud pozulması deməkdir" - qeyd edib Roys.

**Öz növbəsində Ceyms Uorlik bildirib ki, Dağlıq Qarabağ - hər an nəzarətdən çıxa biləcək "dondurulmuş" yox, "unudulmuş" münaqişədir.** "Məhz buna görə bütün snayperləri yığışdırmaq, beynəlxalq nəzarətçilər kontingentini gücləndirmək zərurəti var. Prezident Administrasiyası bizi bu məsələlərdə nə qədər tez dəstəkləsə, bir o qədər ölüm hallarına son qoyular, yeni müharibənin qarşısı alınar" - bildirib amerikalı həmsədr.

Yeri gəlmişkən, ötən il cəbhədə baş vermiş döyüş toqquşmaları nəticəsində müdafiənin ön xəttində yerləşən əsgər və zabitlərimiz düşmənə ağır zərbələr vurublar. Ermənistan Silahlı Qüvvələrinə məxsus sığınacaqlara endirilən sərrast zərbələr nəticəsində erməni tərəfinin xeyli canlı qüvvəsi və texnikası sıradan çıxarılıb. Düşmən ümumilikdə il ərzində 143 ölü və 100-dən çox yaralı itkisi verib. 2015-ci ildə Ermənistan Silahlı Qüvvələrinə məxsus 11 kiçik ölçülü pilotsuz uçan aparat aşkarlanaraq Azərbaycan Hərbi Hava Qüvvələri Hava Hücumundan Müdafiə Qoşunlarının bölmələri tərəfindən sərrast atəşlə məhv edilib. 2015-ci ildə Ermənistan Silahlı Qüvvələrinin bir hərbçisi də Azərbaycan tərəfə təslim olub.

***

Yada salaq ki, Konqresdəki görüşdən az öncə Ceyms Uorlik Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşünün reallaşması üçün səylər göstərəcəklərini bildirmiş, tezliklə belə bir görüşün baş tutacağına ümid ifadə eləmişdi. Belə bir təmasın Belarusun paytaxtı Minskdə baş tuta biləcəyi barədə informasiya da yayılmışdı.

Rəsmi Bakı hələlik bu informasiyaları şərh eləmir. Prezidentlər arasında baş tutan və 2015-ci il üçün yeganə olan Bern görüşü göstərdi ki, tərəflərdən heç biri belə təmaslardan ciddi nəsə gözləmir. Bu mənada növbəti nəticəsiz görüşün baş tutması üçün həmsədrlər belə görünür ki, bu dəfə daha çox "tər tökməli" olacaqlar.

Bunun əksinin olması üçün isə görüşə kimi Qarabağ məsələsində hansısa pozitiv irəliləyişin olması vacibdir. Bu da üfüqdə görünmür. Çünki danışıqlar prosesində bir sıra obyektiv və subyektiv səbəblərdən üçüncü ildir pat vəziyyəti hökm sürür və ondan çıxmaq üçün prezidentlərin daha bir formal görüşü kifayət etməyəcək.

***

Sözsüz ki, Qarabağ ixtilafının həllinə Rusiya amilinin həlledici təsiri bu il də qalacaq, bəlkə hələ daha da güclənəcək.




Ona görə ki, Kremlin Suriya və Ukrayna məsələsində hədəfə çatacağı və ya çatmayacağına məhz bu il aydınlıq gəlməsi gözlənilir. Bu nəticələrdən asılı olaraq, Güney Qafqazda Moskvanın söz sahibliyi də müvafiq korrektlərə uğraya bilər.

Məsələ ondadır ki, Güney Qafqaz isə şimal qonşumuz üçün indi heç vaxt olmadığı qədər mühüm önəm daşıyır. Həm də o baxımdan ki, region ondan ötrü Suriya böhranı və İŞİD-lə mübarizə kontekstində bir növ "arxa bağça" rolundadır. Eyni zamanda region Moskvanın Şimal Qafqaza nəzarəti əldə saxlaması üçün önəm daşıyır. O üzdən və Türkiyə ilə gərginləşən münasibətlər də ciddiyə alınarsa, böyük ehtimalla, Rusiya bu il Cənubi Qafqaz və ətrafında, eləlxüsus da Ermənistanda özünün hərbi mövcudluğunu daha da möhkəmlətməyə çalışacaq.

Bəlli olduğu kimi, bu proses ötən ilin sonlarından etibarən artıq başlayıb. Şimal qonşumuz işğalçı ölkəni sürətlə hərbiləşdirməkdə, orada müasir hava-hücumundan müdafiə sistemləri yerləşdirməkdədir. Eyni zamanda Ermənistanın xarici sərhədləri ilə yanaşı, hava məkanını da nəzarətə götürməklə, faktiki, qonşu Azərbaycan, Türkiyə və Gürcüstana yeni təhdidlər yaratmaqdadır. Rusiya Qərbin regionda təsirini önləmək üçün bundan başqa, 2016-cı il üçün bölgədə çoxsaylı hərbi təlimlər keçirməyi nəzərdə tutub.

***

**Bu qəbildən yeni və mümkün gəlişmələri, Rusiyanın öz perimetri boyu hərbi təsirini artırmaq planlarını amerikalı generallar da qeyd eləməyə başlayıblar. Diqqət də ən əvvəl Kremlin hərbi xarakterli planlarına, hərəkət və manevrlərinə yönəlib.**

"Əgər 2008-ci ildən etibarən Rusiyanın Gürcüstanda, Dağlıq Qarabağda, Krımda, Donbasda, indisisə Suriyadakı hərəkətlərinə baxsaq, görərik ki, onların mütləq əksəriyyəti revanşist siyasətin təzahürüdür. Başqa sözlə, Rusiya yenidən məqsədlərinə çatmaqdan ötrü öz hərbi gücünü milli güc nümayişi kimi istifadə etməyə başlayıb".

Bu fikri NATO-nun Avropadakı Silahlı Qüvvələrinin komandanı, ABŞ Hərbi Hava Qüvvələrinin generalı Filipp Bridlav söyləyib. Lakin amerikalı general Rusiyanın konkret olaraq Dağlıq Qarabağda hansı hərəkətlərini nəzərdə tutduğunu qeyd eləməyib. Ancaq istisna deyil ki, o, münaqişə zonasında ağır silahlardan istifadə olunmaqla mövqe döyüşlərinin şiddətlənməsini və Rusiyanın Qarabağda sülhməramlı qüvvələr adı altında öz qoşunlarını yerləşdirmək planlarını nəzərdə tutur. NATO komandanına görə, bu o deməkdir ki, ABŞ Avropadakı silahlı qüvvələrinin əməliyyat planlarında dəyişiklik etməlidir.

**Bridlavın sözlərinə görə, o, Rusiya prezidenti Vladimir Putinin öz "modernləşmiş və təzədən təlim görmüş" silahlı qüvvələri ilə nə etmək istədiyini söyləməkdə çətinlik çəkir.** "Çoxları məndən soruşur ki, Putin nə haqda düşünür? Və ya soruşurlar: necə düşünürsünüz, Putin nə düşünür? Mən əmin deyiləm ki, sualın cavabın bilirəm. Amma mən görürəm ki, o nə edir və bundan da nəticə çıxarıram ki, biz nə haqda düşünməliyik" - vurğulayıb general.

***

Beləcə, Dağlıq Qarabağ məsələsinin həll perspektivi də bu il xeyli dərəcədə Qərb (ABŞ)-Rusiya münasibətlərinin dinamikasından asılı qalacaq. Bu, həmçinin o anlama gəlir ki, sülh danışıqlarının pat vəziyyətindən çıxmasını da böyük ölçüdə bu amil müəyyən edəcək. O sırada istisna deyil ki, Qarabağ məsələsi də daxil, Cənubi Qafqaz Moskva və Vaşinqtonun bir-birinə güc nümayişi üçün poliqonlardan birinə çevrilsin.

Söhbət əlbəttə ki, qaynar müharibədən getmir. Daha çox informasiya savaşı və Azərbaycana və Ermənistana təsirlər uğrunda qlobal güclərin mübarizəsindən gedir. Təbii ki, qardaş Türkiyə də bu mübarizədən kənarda qalmayacaq. Əksinə, Moskva ilə gərilmiş əlaqələr Ankaranı Güney Qafqaza yönəlik daha çevik və uzaqgörən siyasət yürütmək zorunda qoyur və qoyacaq. Əlbəttə ki, ABŞ, NATO ilə sinxron hərəkət eləməklə.

***

**Sadalanan gözləntilərin fonunda sözsüz ki, 2016-cı ildə də nikbin, "gümrahlaşdırıcı" bəyanatlarının şahidi olacağıq. Rusiyalı deputat, Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq qrupunun rəhbəri Dmitri Savelyevin açıqlaması bu xüsusda yeni ilin ilk optimist açıqlaması kimi qeyd oluna bilər.**

"Rusiya Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında daha fəal mövqe tutmalıdır". Bu sözləri o, moscow-baku.ru saytına müsahibəsində deyib. "Bu il münaqişənin nizamlanmasında irəliləyiş əldə ediləcəyinə çox ümid edirəm. Arada müəyyən çıxılmaz vəziyyətlər yaransa da, iş düzgün istiqamətdə aparılır. İlk olaraq, ən vacib məsələ Dağlıq Qarabağ ətrafındakı 7 rayonun azad edilməsidir", - deyə deputat qeyd edib.

Maraqlıdır ki, 2015-ci il də "7 rayon söhbəti"ndən başlamışdı. Belə bəyanatların real məzmun qazanması üçün isə ilk öncə sülh danışıqları dalandan çıxarılmalıdır. Bəs bu il sülh prosesi pat vəziyyətindən çıxacaqmı? Əsas suallardan biri də elə budur.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 4 (6325) 7 yanvar 2016

**APA-nın Gürcüstan bürosunun məlumatına görə, Tiflis yaxınlığındakı Soğanlıq (Poniçala) kəndində 23 yaşlı azərbaycanlı gəncin qətli ilə bağlı aksiya keçirilib.**




# Borçalıda vəhhabizm təhlükəsi

## Zəlimxan Məmmədli: "Azərbaycan iqtidarı, təhlükəsizlik orqanları, o cümlədən şeyx də bu məsələyə seyrçi qalmamalıdır"

Aksiyaya səbəb kənddə vəhhabi təriqətinə məxsus azərbaycanlının öz dostunu qətlə yetirməsi olub. Qətlə yetirilən Fikrət Əhmədovun yaxınları və kənd sakinləri keçirdikləri aksiyada radikal vəhhabiliyin yayılmasına etiraz ediblər.

Gürcüstanın müxtəlif yerlərindən gəlmiş müsəlmanlar "Vəhhabizm vandalizm!", "Vəhhabilik İslam deyil!" və digər şüarlar qaldırıblar.

Aksiyada çıxış edən Əhli-Beyt məscidinin axundu Hacı Rahid Kərimov, Gürcüstan Müsəlmanları İdarəsinin Kvemo Kartli bölgəsi üzrə nümayəndəsi Hacı Qurban Murquzov və başqaları vəhhabiliyin İslam dininə aidiyyəti olmadığını bildirib, bu təriqətə qoşulanları kəskin şəkildə pisləyiblər.

Çıxışçılar vəhhabi təriqətindən olanların Soğanlıq kəndində qarşıdurma yaratmağa cəhd etdiklərini, onların mövqeyini qəbul etməyən kənd sakinlərinə təzyiq göstərdiklərini bildiriblər. Onlar hüquq-mühafizə orqanlarını vəhhabiliyin qarşısını almağa çağırıblar.

**Məsələ ilə bağlı Azərbaycanın sələfi təriqətinin lideri, "Əbu Bəkr" məscidinin imamı Qamət Süleymanovla əlaqə saxladıq. Q.Süleymanov "Yeni Müsavat"a açıqlamasında aşağıdakıları bildirdi:** "Gürcüstanda olan hadisədən dəqiq məlumatım yoxdur. Ümumiyyətlə, belə bir hal yaranıb ki, harada saqqallı görürlər deyirlər ki, onlar vəhhabilərdir, sələfilərdir. Sələfilərə qarşı hər hansı bir aksiyanın olduğunu eşitməmişəm. Radikallar, təkbirçilər sələfilər deyillər. Əgər Gürcüstanda sələfilərə qarşı belə bir aksiya olsaydı, mənə deyərdilər".


Zəlimxan Məmmədli

**"Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədli isə "Yeni Müsavat"a mövzu ilə bağlı açıqlamasında fərqli fikir söyləyib. Z. Məmmədli bildirib ki, İranın İslamdan siyasi məqsədləri üçün istifadə edərək, bu dini gözdən salması bir faktdır:** "Harada müsəlman varsa, orada İranın kəşfiyyat və əks-kəşfiyyat idarəsi məscidlərdən istifadə edərək, öz siyasi ideyalarını gerçəkləşdirirlər. Bunun əlamətlərini də görürük. Artıq Azərbaycana İslam dinində təfriqələr yaradan zehniyyət gəlməkdədir. O cümlədən Borçalı da müsəlman zonasıdır. Mən bununla bağlı dəfələrlə "SOS" siqnalı vermişəm. Hətta Qafqaz Müsəlmanları İdarəsinə də rəsmi müraciət edib, şeyxlə görüşmüşəm. Bildirmişəm ki, bu proses nəzarətə götürülməlidir. Əks halda, Azərbaycanı təhdid edən bir dini cərəyan meydana çıxacaq. Bizim milli məsələlərin üzərinə artıq məzhəb düşüncəsi gedir. Borçalıda hər zaman bir "eloğluluq", milli təşəbbüslük öndə olub. Məzhəb bölücülüyünə isə yer verilməyib. Ancaq artıq bunun əlamətləri müşahidə olunmaqdadır. İran tərəfindən insanların dini mərkəzlərə kütləvi şəkildə aparılması, onların himayə olunması, dini ədəbiyyatların paylanması bir faktdır. Bu fikirlərimə görə mən dəfələrlə təhdid olunmuşam. Hətta şəxsi-ideoloji saytlarda mənə qarşı ölüm təhdidi də olub. Soğanlıqda baş verən son hadisədə məzhəb bölücülüyü istiqamətində təbliğat aparanlar var. Hər halda, ortada cinayət hadisəsi var və təhqiqat aparılmalıdır. Azərbaycan da bu məsələdən kənarda qalmamalıdır".

**Z.Məmmədli bildirib ki, İran şəbəkəsi bu hadisəni məzhəb düşüncəsi ilə əlaqələndirir:** "Vəhhabilər də Azərbaycanda dini boşluqdan, insanların sosial çətinliklərindən istifadə edərək özəklərini qururlar. Bu gerçəklikdir. İndi orada qətl hadisəsi baş verib. Bu kiçik görünə bilər. Ancaq sabah daha böyük hadisələr baş verə bilər. Buna görə də hesab edirəm ki, Azərbaycan iqtidarı, təhlükəsizlik orqanları, o cümlədən şeyx də bu məsələyə seyrçi qalmamalıdır. Profilaktik işlər aparılmalıdır. Xüsusilə İran və Səudiyyə Ərəbistanı qarşıdurmasının Azərbaycana və Borçalıya təsir etmək imkanlarını hesablamaq lazımdır. Görünən odur ki, bu məqamda İranın maraqlarına xidmət etməyən dövlətlər məzhəb qarşıdurması ilə cəzalandırıla bilər".

❑ **Əli RAİS**

---

# Putin Donbası qaytarırmı?

## İsveç politoloqu rəsmi Moskvanın Donbası Ukraynaya qaytaracağını iddia edir; **Şahin Cəfərli:** "Zaman Ukraynanın xeyrinə, Rusiyanın isə əleyhinə işləyir"




**Rusiya Donbası Ukraynaya geri qaytara bilər. Bu sözlər İsveç politoloqu Anders Aslundun Ukrayna mətbuatında dərc olunan köşə yazısında yer alıb. Bu barədə axar.az saytı məlumat yayıb.**

İsveç politoloqunun sözlərinə görə, Putinin yaxın adamlarından olan Boris Qrızlovun Ukrayna üzrə rəsmi nümayəndə təyin edilməsi artıq bu prosesin başladığını göstərir: "Bu təyinat Rusiyanın Ukraynaya qarşı siyasətində vacib dəyişikliyə səbəb ola bilər. Qrızlov Putinin yaxın dairəsindəki ağır toplardan biridir. Bundan başqa, o, Təhlükəsizlik Şurasının daimi üzvü, keçmiş daxili işlər naziri, Dumanın spikeri və Putinin Peterburqdakı Dövlət Təhlükəsizlik Komitəsindəki keçmiş həmkarıdır. Qrızlov bu vəzifədə nisbətən "yüngül çəkili" olan Azamat Qulməhəmmədovu əvəz edəcək. Sonuncu bu posta aprel ayında təyin olunub. Onun təyin olunmasında məqsəd Rusiyanın danışıqlarda rolunu azaldaraq, Ukraynanı Donetsk və Luqank liderləri ilə danışıqlara məcbur etmək idi. İndi isə Kreml nəzarəti öz əlinə götürüb".

**Politoloq Şahin Cəfərli bildirdi ki, Ukraynanın şərqində münaqişə ocağının alovlanması rəsmi Moskva üçün sərfəli deyil:** "Krımın ilhaqının və Donbasdakı separatizmə verdiyi dəstəyin Rusiya üçün həm geosiyasi, həm də iqtisadi baxımdan çox ağır yükə çevrildiyi bir şəraitdə Ukraynanın şərqindəki münaqişənin yenidən alovlanmasının Moskva üçün sərfəli variant olmadığı aydındır. Çünki hərbi əməliyyatlar başlasa, hazırda əsas diqqətini və gücünü Suriyaya yönəldən Rusiya öz enerjisini yenidən Ukrayna məsələsi üçün sərf etməli olacaq, Ukrayna ordusunun ötən dövrdə gücünü artırması səbəbilə Donbasa əlavə qüvvələr göndərməli olacaq, bu isə həm ciddi maliyyə vəsaiti tələb edir, həm də Rusiya üçün yeni risklər doğurur. Belə olan halda Qərbin yeni sanksiyaları gündəmə gələcək ki, neftin qiymətinin sürətlə aşağı düşməsi və Rusiya iqtisadiyyatının ağır durumu nəzərə alınarsa, bu sanksiyaların Moskva üçün əlavə zərbə olacağı bəllidir".


Şahin Cəfərli

**Politoloq onu da qeyd etdi ki, hazırkı vəziyyət Putini qane edir:** "Hazırkı "donmuş" vəziyyət və danışıqların davam etdirilməsi Putini müəyyən mənada qane edir. Çünki bu vəziyyət davam etdikcə, Avropa Birliyi daxilində Rusiyaya qarşı sanksiyaların yumşaldılmasını tələb edən ölkələrin sayı da artır və onların səsi daha gur çıxır. Məsələn, ötən ilin dekabrında Avropa Birliyi daxilində Rusiyaya qarşı sanksiyaların uzadılması gündəmə gələrkən İtaliya narazılığını bildirmişdi. Lakin qurumun əsas qərarverici mərkəzləri - Berlin və Paris sanksiyaların uzadılmasına tərəfdar olduqları üçün qərar da həmin istiqamətdə oldu və sanksiyalar daha 6 ay uzadıldı".

**Ş.Cəfərli Rusiyanın Donbası Ukraynaya qaytaracağından danışmağın tez olduğunu da söylədi:** "Kremlin hər hansı güzəşt əldə etmədən Donbası Ukraynaya qaytaracağından danışmaq hələ tezdir. Problemin həllinə dair Minsk razılaşmaları 2015-ci ilin sonuna qədər həyata keçirilməli idi, lakin bu, baş tutmadı. Həmin sazişdə bütün əsir və girovların "hamının hamıya" prinsipi üzrə dəyişdirilməsi, Donbasda Ukrayna qanunvericiliyi əsasında, ukraynayönümlü siyasi partiyaların iştirakı ilə və ATƏT-in nəzarəti altında yerli idarəetmə orqanlarına seçkilərin keçirilməsi, Ukrayna dövlətinin separatçıların əlindəki ərazilərə müvəqqəti status verməsi, ağır cinayətlərdə əli olmayan separatçıların amnistiyası əksini tapıb. Bütün bu proseslər yekunlaşdıqdan sonra Ukrayna-Rusiya sərhədinin Donbasdakı 400 kilometrlik hissəsinin yenidən Ukraynanın nəzarətinə verilərək problemin qapanması nəzərdə tutulur. Lakin bu şərtlərin heç biri yerinə yetirilməyib. Nəticədə sazişin həyata keçirilməsi müddəti 1 il uzadılıb. Yəni bu müddəalar 2016-cı ildə həyata keçirilməlidir, lakin yenə də qeyri-müəyyənlik var. Bu il ABŞ prezidenti Barak Obamanın səlahiyyət müddəti başa çatır. Obama Ukrayna problemini həll edərək prezidentlik müddətini tamamlamaq istəyə bilər. Bu, demokratların prezidentliyə namizədinin seçki kampaniyasına da dəstək mənasına gələrdi. Çünki Rusiya-Ukrayna tematikası seçki kampaniyasında əsas xarici siyasət mövzularından biri olacaq. Obama dövründə Amerikanın bir çox xarici siyasət vəzifələri bu və ya digər dərəcədə ya həllini tapıb, ya da həmin problemlərin həlli istiqamətində mühüm addımlar atılıb. İraqdan ordunun çıxarılması, Əfqanıstandakı hərbi kontingentin ixtisarı, İranın nüvə proqramı ilə bağlı problemin həlli, Kuba ilə əlaqələrin bərpası, Trans-Sakit Okean tərəfdaşlığının təməlinin qoyulması Obama dönəminin xarici siyasətdəki ciddi uğurlarıdır. Bunların sırasına Ukrayna məsələsinin də əlavə olunması, İŞİD-in məhvi və Suriyada siyasi həll prosesinin başlaması demokratlara əlavə xallar qazandıra bilər".

Müsahibimiz hesab edir ki, zaman Ukraynanın xeyrinə işləyir: "Lakin istənilən halda hesab edirəm ki, zaman Ukraynanın xeyrinə, Rusiyanın isə əleyhinə işləyir. Ukrayna öz ordusunu gücləndirir, iqtisadiyyat hələlik zəif templə də olsa, inkişaf meylləri göstərir, demokratiya getdikcə oturuşmaqdadır. Donbas problemi bu il həllini tapmasa belə, bu məsələnin bizim Dağlıq Qarabağ münaqişəsi qədər uzanacağını düşünmürəm".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 4 (6325) 8 yanvar 2016

**Uzun müddətdir adı daha çox qalmaqallarda hallanan Akademik Milli Dram Teatrının rəhbəri nəhayət ki, vəzifəsindən azad edilib. Belə ki, bir neçə il teatrın direktoru vəzifəsində çalışan İsrafil İsrafilovun müqaviləsinin müddəti yanvarın 5-də başa çatıb və onun müqaviləsinin müddəti uzadılmayıb. Əvəzində isə yanvarın 6-da mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin əmri ilə bu vəzifəyə Azərpaşa Nemət təyin olunub. O, həmçinin teatrın bədii rəhbəri kimi də fəaliyyət göstərəcək. Teatrın direktor müavini isə Natiq Güləhmədov təyin olunub.**

# Aktyorlar direktorun işdən çıxarılmasını bayram edir

**Nurəddin Mehdixanlı:** "Yaşadıqlarımızı pis yuxu kimi unutmağa çalışacağıq"
**Bəsti Cəfərova:** "Gedənin dalınca danışıb, asıb-kəsməzlər"


Nurəddin Mehdixanlı


Bəsti Cəfərova


İsrafil İsrafilov

Qeyd edək ki, Azərpaşa Nemət ötən ilin sentyabr ayından teatrın bədii-rəhbəri olmaqla yanaşı, baş rejissoru vəzifəsini də yerinə yetirirdi.

***

Əslində Akademik Milli Dram Teatrında rəhbər dəyişikliyi olacağı bir çoxları üçün gözlənilən idi. Səbəb isə aktyor kollektivinin əksər üzvlərinin uzun müddət idi ki, sabiq direktor İsrafil İsrafilovdan narazı olması idi. Zaman-zaman bu narazılıqlar ciddi qalmaqalların da yaranmasına gətirib çıxarırdı. Kollektivdə ikiləşmə prosesinin mövcudluğu hiss olunurdu, bir tərəfdə İsrafilov tərəfdarı, digər tərəfdə isə ondan narazı aktyorlar bir-biriləri ilə hətta yumruq davasına da qalxdılar. Ölkənin ana teatrı hesab olunan AMDT-nin bu cür xoşagəlməz vəziyyəti ilə barışmayan xalq artistləri və bir neçə tanınmış aktyor ötən ilin sentyabrında, yeni mövsümün açılışına bir neçə gün qalmış ölkə prezidentinə müraciət etdilər. Müraciətdə direktor İsrafil İsrafilov haqda sərt tənqidi fikirlər səslənmiş, aktyorlar kollektiv daxilində baş verən parçalanma, konflikt və qalmaqalların əsas səbəbkarının İsrafil İsrafilov olduğunu dəfələrlə qeyd etmişdilər. Müraciətə imza atanlar arasında xalq artistləri Ramiz Məlik, Rafael Dadaşov, Nurəddin Mehdixanlı, İlham Əsgərov, Firəngiz Mütəllimova, Zemfira Məmmədova, Rafiq Əzimov, əməkdar artistlər Sənubər İsgəndərova, Mehriban Xanlarova da var idi.

Müraciətin ardınca Azərpaşa Nemət teatra bədii-rəhbər və baş rejissor təyin olundu. Bir çox teatrşünaslar da qeyd etdilər ki, onun gəlişi teatrdakı xoşagəlməz olayların səngiməsinə səbəb oldu.

***

Xalq artisti Nurəddin Mehdixanlı "Yeni Müsavat"a açıqlama verərək teatrda rəhbər dəyişikliyinin aktyorlar tərəfindən bayram edildiyini deyib: "Mədəniyyət və Turizm Nazirliyi teatrımıza çox böyük bayram yaşatdı. Teatrın bütün kollektivi ilə birgə böyük tamaşaçı zalında tədbir keçirildi. Tədbirdə Azərbaycan rejissor məktəbinin ustadlarından biri olan, hamımızın çox sevdiyi Azərpaşa Nemət rəsmən bədii rəhbər və direktor təyin olundu. Və bundan başqa 30 ildən artıq bizim kollektivlə işləmiş, sonradan isə müəyyən səbəblərə görə teatrdan uzaqlaşdırılan Natiq Güləhmədov da direktor sərəncamçısı təyin edildi. Bu təyinat kollektiv tərəfindən böyük alqışlarla qarşılandı. Çünki hər kəsin ürəyindən idi, onların hər ikisini kollektiv çox gözəl tanıyır. Birinin yaradıcılıq, digərinin isə təşkilatçılıq bacarığına bələdik. Beləliklə, teatrda dörd ildə baş verməyən bir bayram yaşanır, bütün sənət adamları, gənc, yaşlı hər kəs sevinir. Çünki onlar artıq yaradıcı insanlarla yaradıcılıq işləri ilə məşğul olacaq. O cür xoşagəlməz qalmaqal, dedi-qodu olayları artıq arxada qalacaq".

**Xalq artisti teatrın həyatında baş verən, ötən xoşagəlməz hadisələri "pis yuxu" adlandırıb:** "Yaşadıqlarımızı pis yuxu kimi unutmağa çalışacağıq. Yaradıcılıqdan bir qədər uzaqlaşmış, yaradıcılıqdan daha çox başqa problemlərlə qarşılaşmış sənət adamlarımızın beş ilini heç kimsə qaytara bilməyəcək. Biz itirdiklərimizi itirdik, təki teatrımız itirməsin. Məhz bu gün AMDT qazandı. Ona görə də nazirliyimizin bütün işçilərinə, bu işdə əməyi keçən hər kəsə təşəkkür edirik. Nəhayət, haqq yerini buldu..."

Nurəddin Mehdixanlı mətbuat işçilərinə də öz təşəkkürünü bildirib: "Ötən hadisələrdə yanımızda olan, bizim sözümüzü, fikrimizi cəmiyyətə çatdıran insanlara, yəni siz mətbuat işçilərinə də təşəkkür edirəm. Olanlar mətbuatda çox ciddi şəkildə müzakirə edildi".

**Xalq artisti Bəsti Cəfərova isə açıqlamasında İsrafil İsrafilovun vəzifəsindən kənarlaşdırılmasına sevinən aktyorlar sırasında olmadığını deyib:** "Mənim ona çox böyük hörmətim var. Beş ili çox böyük hörmət və izzətlə bir yerdə işlədik. Gedənin dalınca danışıb, asıb-kəsməzlər. İsrafil İsrafilovun bizim teatrda çox gözəl işləri oldu, onları da qeyd etmək lazımdır. Mən çox şadam ki, ötən beş ildə özümə İsrafilov kimi dost qazandım. Ona yeni təyin olunacağı vəzifəsində uğurlar arzulayıram".

Bəs görəsən, teatrdakı vəzifəsindən uzaqlaşdırılan İsrafil İsrafilov bundan sonra harda və hansı vəzifədə çalışacaq? Suala cavab tapmaq üçün sabiq direktor və teatrın mətbuat xidməti ilə əlaqə saxlamağa çalışsaq da, telefon zənglərimiz cavabsız qaldı. Teatrın aktyor kollektivi isə bu barədə məlumatsız olduqlarını bildirdi. Ölke.az isə xəbər verir ki, teatrın aktyorları bildirib ki, İsrafilov direktor vəzifəsindən çıxdığını biləndən sonra iki gün ərzində özünə məxsus əşyaları yığaraq kollektivlə sağollaşmadan teatrı tərk edib.

**Aktyorlar bildiriblər ki, İsrafilov "Azdrama"nın həyətindən dörd ədəd dekorativ şam ağacını fəhlələrə çıxartdıraraq bağında əkdirib:** "Bu adamın hər şey edəcəyini gözləyirdik. Heç gedəndə kollektivlə sağollaşmadı da. Ancaq həyətdəki dekorativ şam ağaclarını fəhlələrə çıxartdırıb bağında əkdirməyi sözün əsl mənasında rəzalətdir. Yəni bu adam bağına dörd ədəd ağac ala bilmir? Yoxsa teatrdan heyfini tam ala bilmədiyinə görə belə edir? O, teatrdan başqa şeylər də aparıb. Ancaq hələlik bunu deməklə kifayətlənirik. Görün beş il yarım ərzində ölkənin ana teatrına kim rəhbərlik edib".

❑ Xalidə GƏRAY

# Tamahkar qaynaqçının əhvalatı...



Samir SARI

**Bizim meridianın, coğrafi paralelin insanları başqa yerlərə nisbətən bir az artıq tamahkardırlar, elə deyilmi, əziz oxucular? Mən elə bilirəm. Neçə illərdir izləyirəm, əlimdən ildə, yalan olmasın, bir milyon informasiya keçir, oturub analiz edirəm və görürəm ki, tamahkar bir cəmiyyətdə yaşayırıq.**

Təsəvvür edin ki, insan gözünü dünyaya açanda ilk təmas qurduğu, ilk dil açanda adını dediyi adamı sırf tamahkarlıq məqsədilə öldürür.

Dünənlərdə baş verən əhvalatı bilirsiniz, məşhur qızıl alverçisinin qatili öz gənc qızı çıxdı. Hələ qətlin motivlərini, detallarını tam bilmirik, amma ortada nankorluq və tamahkarlıq amillərinin olduğu birmənalıdır.

İndiyə qədər çox belə hadisələr olub, bu da o xanədəndir. İndən belə də olacaq. Dünya malına görə bir-birini güllələyən qardaşlar var. Onsuz da istifadə etmədikləri bir metrlik torpağa görə 20 ildir bir-birilə kəlmə kəsməyən qohumlar tanıyıram.

Bu ölkədə dollar milyonçuları var ki, özü, nəsli, züryətləri bola-bol xərcləsələr, pulları təxminən 250 il qurtarmaz, amma bunlar dincəlmirlər, gözləri doymur, hey artırmaq istəyirlər.

Biri vardı, şəhərin hansı tərəfindən keçirdin, görürdün, möhtəşəm bir villa tikdirir, ahıl yaşında tikintilərin üstündə dururdu ki, iş icraçıları və fəhlələr material oğurlamasın. 50 otaqlı kaşanələri vardı. Adam bir ucdan imarətlər tikdirə-tikdirə gedirdi. Hər dəfə "bu da filankəsin villasıdır" deyiləndə deyirdim, bu ağıllı adam olsaydı, yaxın qohum-əqrəbasını da yanına alıb bir kruiz gəmisinə minər, dünya səyahətinə çıxardı, şəkillər çəkə-çəkə ömrünün yerdə qalan hissəsini asudə yaşayardı. Amma yox, adamın sorağı həmişə tikinti meydançalarından gəlirdi, deyirdilər, soyuqda əsə-əsə, istidə təntiyə-təntiyə yeni villasını tikdirir. Bir gün xəbər gəldi ki, o ahıl milyonçu rəhmətə gedib. Təsəvvür edin, adam o qədər evlər, saraylar tikdirdi, birinin içində bir gün yaşamadı, öldü.

Təkcə milyonçular deyil, bu ölkənin kasıbı da tamahkardır, istəyir ki, az işləsin, bəzən heç işləməsin, amma çox qazansın.

Bu bayram günlərində pilləkəndə qonşulardan biri ilə rastlaşdıq, dedi ki, qonşu, problemim var, hamamımın çəni deşilib, damcılayır. Zarafatla dedim ki, vallah, gücüm yalnız sənin problemini yazıb ictimailəşdirməyə çatar, amma bu da ictimai-siyasi problem deyil, ən yaxşısı qaynaqçı tapmaqdır. Allahdan binanın girəcəyində "SIVARŞİK xidməti" elanı vardı, nömrə də qoymuşdular. Qonşum zəng elədi, 10 dəqiqədən sonra qaynaqçı aparatı da qoltuğunda gəldi. Adam uzun-uzadı çənin deşilmiş, su daman yerinə baxdı, baxdı, axırda dedi ki, burda xeyli iş var, çürümüş yeri kəsməliyəm, "latka" atmalıyam, qaynaq etməliyəm və s. Gözəyarı baxdım, dedim ki, eloğlu, burda 2 dəqiqəlik iş var, uzağı bir elektrod sərf edəcəksən. Yenə başladı uzun-uzadı danışmağa. Qonşum bezdi, dedi ki, yaxşı bu işi neçəyə görəcəksən. Qaynaqçı fikrə daldı, dilini sürüdü. Gözlərindən oxuyuram ki, bu saat o, 5-10 manatlıq işə görə 50 manat istəyəcək. Qonşum dedi ki, çox fikirləşmə, uzağı 10 manatlıq işdir. Nəhayət, qaynaqçı öz qiymətini dedi: 30 manat. Razılaşmadılar. Başqa qaynaqçı gəldi, 10 manata danışdılar, usta 2 dəqiqəyə çənin deşiyini qaynaqladı, yaxşı iş gördüyünə görə qonşum 5 manat da artıq verib yola saldı.

Ertəsi gün qonşum qaynaqçı ilə rastlaşıb, qaynaqçı soruşub ki, nə oldu, çəni düzəltdirdinmi, bu da deyib, 15 manata düzəltdirdim, sən yemədin, o aldı, yedi. Gün boyu bekar-bekar oturub varlı müştəri gözləyən qaynaqçı müdrik-müdrik ona deyib: "Qismət..."

A kişi, nə qismət. Qismət ayağına gəlmişdi, iki dəqiqə zəhmət çəkərdin, 15 manat qazanardın, evində çörəyin olardı. Tamahkarlığının üzündən günlərlə bekar oturanda nə qazanırsan? Hələ yaxşı ki, adam bu tamahla gömrük generalı deyil. İndikilərin atasına rəhmət oxutdurardı.

Dediyim odur ki, oxumuş adamlar demişkən, mental olaraq bizim insanların əsas problemi tamahkarlıq, acgözlükdür. Başımıza gələnlərin çoxu bu üzdəndir. Ölkəni də bu hala tamahkarlar, acgözlər qoyublar. Budur, bax, o tamahkarların qabağını almasalar, inflyasiya ərşə dirənəcək, manatımız da Zimbabve dollarının gününə düşəcək. 1 dollar - 1 milyard manat. Onda hamımız milyarder olacağıq, amma yumurtanın birini 250 milyona alacağıq.

YENİ MÜSAVAT
N 4 (6325) 8 yanvar 2015




# Aliyə doğru qlobal hərəkətdə vacib əməllərin rolu

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismillәhir-Rahmənir-Rahim! Mübarək İslam dininin bizlər üçün vacib buyurduğu əməllər, əslində bəşəriyyətin inkişafı, nicatı üçündür. Bütün vacib buyurulmuş əməllərin kökündə öncə insanın, daha qlobal anlamda isə bəşəriyyətin aliyə doğru yüksəlişi dayanır. Yəni bəşəriyyətin, məxluqatın aliyə, yüksək kateqoriyalara doğru hərəkətində vacibatların, müqəddəs şəriətimizin vacib buyurduğu əməllərin müəyyənedici rolu var. İnsan nə etməlisi üzərində minillər boyu düşünə, özü üzərində və toplum üzərində yüzlərlə sosial eksperiment qoya bilər. Amma Xaliqin, Öz xəlq etdiyi məxluqa təqdim etdiyi kamillik proqramı, insanın haradan gəldiyini, harada olduğunu, haraya gedəcəyini və bu dünyagörüşünün törəməsi olan nə etməli əməl konsepsiyasını özündə birmənalı ehtiva edir və təfəkkür edən insan burada bütün eqzistensial suallarına cavab tapa bilir.**



Bu kontekstdə mübarək dinimizin vacib buyurduğu əməllərdən olan əmr-be-məruf (yaxşı işlərə dəvət) və nəhy-əz-münkər (pis işlərdən çəkindirmə) mövzusu xüsusi önəm kəsb edir. Bu bəhsimizdə həmin mövzuya müxtəlif istiqamətlərdən işıq salmağa çalışacağıq.

## Yaxşı işlərə dəvət - İslamın vacib əməlidir

Dinə təzə gələrkən hər kəs mübarək İslam dininin əqidəvi kökləri və vacibatlarını öyrənir. Hər bir mömin dinə gələrkən mütaliə etdiyi ilk kitablarda İslamın üsulid-din (köklərdən) və füruid-dindən (budaqlardan) ibarət olduğunu öyrənir. Öyrənir ki, əməl etməsi vacib olan 10 əməl kateqoriyası var. Məlumatı olur ki, on vacibatdan biri - əmr-be-məruf, biri də nəhy-əz-münkərdir. Lakin ibadətə başlayandan sonra namaz qılır, mübarək Ramazan ayından orucunu da tutur, imkanı olsa, həccə də yollanır. Bəzən təəssüflər olsun ki, dinə gələn insanın ibadəti bunlarla məhdudlaşır. Amma, namaz, oruc vacib olduğu qədər, digər səkkiz əməl də vacib əməllər sırasındadır. O insanın həyatında ki əmr-be-məruf, nəhy-əz-münkər olmayır - o insanın namazının mahiyyət və keyfiyyəti çox aşağı gələr. Təəssüflər olsun ki, dinimizin on vacibından biri olan əmr-be-məruf mövzusu həyatımızda işlər halda olmur. Bu haqda az danışılır, bəzən yalnız nəzəri halda yada salınır.

## Haqqa dəvət - toplumun islahı üçündür

**Xanım Fatimeyi-Zəhra (s.ə) buyurur:** "Allah yaxşılıqlara əmr etməyi, yəni haqqa dəvət etməyi və pislikdən çəkindirməyi cəmiyyətin üzərində toplumun islahı üçün vacib etmişdir". Xanım Fatimeyi-Zəhra (s.ə) yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmənin vacibliyini çatdırır. Daha sonra isə bunun vacibliyinin səbəblərinə toxunur. Hansı toplumda, cəmiyyətdə, mühitdə yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə yaşanmazsa, o toplumlarda insanların birmənalı olaraq geriləməsi baş verər. Cəmiyyətin islahı, düzəlməsi, inkişafı yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmədən keçir.

**Həzrət Əmirəlmöminin (ə) bu mövzuda buyurur:** "Əmr-be-məruf insanların ən yaxşı əməlidir. Hər bir cəmiyyətin sabitliyi, onda əmr-be-məruf məsələsinə necə yanaşılmasından asılıdır". Bir toplumun sabit inkişafı, irəli getməsi, müsbətə tərəf dəyişməsi orada yaxşı işlərə dəvətin institusional yaşanmasından asılıdır. Əgər hansısa toplumda əmr-be-məruf yaşanmazsa, əgər hansısa toplumda nəhy-əz-münkərə bivec yanaşılarsa, nəticədə toplumun səbatlı inkişafı baş verməz.

## Yaxşılıqlara dəvət və pisliklərdən çəkindirməni tərk edənin duası qəbul olmaz

**Həzrət İmam Rza (ə) buyurur:** "Əmr-be-məruf və nəhy-əz-münkəri tərk etməyin. Əks təqdirdə Allah Təala pis adamları sizə hakim edər və sonra hər nə qədər dua etsəniz, qəbul olunmaz". Yəni burada səbəb və nəticə bağlantısını görürük. Yaxşı işlərə dəvətin tərk edilməsi ona gətirib çıxarar ki, onun tərk olunduğu toplumlarda pis adamlar hakim olarlar və sonra da insanların duaları da qəbul olunmaz. Zahirən belə görsənə bilər ki, yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə edərik, pis nəticələri ilə qarşılaşarıq. Yəni başımıza problem açarıq. Əksinə, yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmədən imtina bu cür mənfi nəticələrə gətirib çıxardır. İnsanın duasının qəbul olunmamasından daha ağrılı nə ola bilər ki?! Toplumda pislərin insanlara hakim olmasından daha ağrılı nə ola bilər ki?! Belə anlaşılır ki, yaxşılıqlara dəvət etməmə və pisliklərdən çəkindirməmə nəticədə toplumda pisliklərin üstünlük təşkil etməsinə, yaxşı şeylərin unudulmasına, pis məsələlərin adiləşməsinə gətirib çıxarır. Əgər öncə bu, yalnız televiziya vasitəsilə evimizin içinə girirdisə, bu gün internet, sosial şəbəkələr istənilən mənfiliyi evimizin içinə telefonumuz vasitəsilə, kompüterlərin vasitəsilə ən tez zamanda gətirə bilir. Əlbəttə ki, eyni zamanda yaxşını da gətirə bilər. Yaxşını etmək iradə istəyir, pisliyi etmək isə iradəsizlik.

Əgər insan yaxşını tanısa, yaxşıya dəvət etmək istəsə və pisi tanısa, pisdən çəkindirmək istəsə - bunun üçün texnoloji nailiyyətlər fövqəl dərəcədə əhəmiyyətli alətə çevrilə bilər. Amma, insan qəflətdə olsa, fərqində olmasa - bu halda hər tərəfdən fəsadlar, mənfiliklər, eybəcərliklər texnoloji vasitələrlə çox rahat şəkildə onun evinə, mühitinə daxil ola bilər. İlk əvvəl adiləşər. Hər pis şey, hər mənfi məsələ öncə adiləşdirilir. Zina - haram musiqi də o cürdür. Əvvəl insan üçün ğina adiləşir, bir müddət keçdikdən sonra artıq insan onun təsiri altında olur. İnsan bir ömür ğina ilə yaşayır, bu, onun iradəsini məhv edir, sonra da aqibəti viran olur.

Əgər toplumda yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə olmasa, bütün bu məsələlər adiləşəcək. Ona görə də bu, diqqət olunmalı mövzulardandır.

## Tək dillə deyil, gözəl əməllərlə yaxşılıqlara dəvət

**Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə ilə bağlı Həzrət İmam Sadiq (ə) buyurur:** "Xalqı dilinizlə deyil, gözəl əməllərinizlə yaxşılıqlara dəvət edənlərdən olun. Xalq sizin çalışmağınızı, doğruluğunuzu və haramlardan çəkinmənizi görməlidir". Olduqca incə bir buyuruşdur. Dinimiz bu məsələyə fövqəl dərəcədə təkid edir. Əməllə insanları yaxşılıqlara dəvət edib, pisliklərdən çəkindirmək lazımdır. Sadə dillə desək, gözəl nümunə olmağı bacarmaq lazımdır. Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə əməli halda yaşanmalıdır. Nəhayətdə mütədəyyin, mömin insanlar toplumun nümunələri-dir. Onların necə davranması bütün topluma təsir edir.

## İman əhli yaxşılıqlara dəvət və pisliklərdən çəkindirməni tərk etsə...

**İmam Sadiq (ə) Həzrət Əmirəlmömininindən (ə) nəql edir:** "Allah-Təala iki mələyə bir şəhəri alt-üst etməyi əmr edir. Necə ki, Allahın əmri ilə mələklər Lut qövmünün yaşadığı şəhəri alt-üst etmişdilər, Allah bu şəhərin camaatına əzab vermək üçün iki mələk göndərir. Çünki şəhərin sakinləri arasında fasiqliklərində həddən artıq inadcıl olan şəxslər var idi. Bu adamlar heç bir vəchlə tövbə etmir, günahlarından əl götürmürdülər. Həmin iki mələk şəhər camaatına əzab vermək üçün gələndə görürlər ki, camaat arasında həddən artıq dua və ibadət əhli olan müqəddəs şəxsiyyət var. Mələklərdən biri digərinə deyir: "Mən belə ibadət əhli olan adama əzab verməyə cürət etmirəm. Şəhəri onun başına uçura bilmərəm. Allahdan bir daha soruşaq, sual edək". O biri mələk deyir: "Sən vəzifəni icra et". Əvvəlki mələk deyir: "Qorxuram Allahın əmri dəyişsin". Bəlkə mələk düşünüb ki, Allahın əzab vermək əmri alınanda bu adam hələ tövbə etməmişdi. Mümkün idi ki, əmrin verildiyi vaxt ərzində həmin abid də tövbə etsin. Bir daha deyir: "Bəlkə əmr dəyişdirilib. Yenidən soruşmağımın eybi yoxdur". Ona görə də, həmin mələk qayıdır Allaha xitab edir: "Mən əmrinizi icra etmək üçün həmin şəhərə getdim. Amma, camaat arasında ibadət və duaya məşğul bir nəfər abid gördüm. Təklifə əməl etməliyəm, vəzifəmə əməl etməliyəm, yoxsa əmr dəyişdirilmişdir?" Allah Təala buyurur: "Əmr öz qüvvəsində qalmaqdadır. Gedin, şəhəri viran edin". Daha sonra Allah Təala mömin abidin də olduğu şəhəri bütövlükdə əzaba düçar etməsinin səbəbini açıqlayır: "Düzdür ki, bu adam ibadət və dua əhlidir. Amma, heç vaxt üzünün rəngi Mənə görə bozarıb, qeyzlənib, dəyişməyibdir. *(Yəni bu şəxs şəhər əhlinin günah etdiyini gördüyü halda, çöhrəsində etiraz əlaməti olaraq qəzəb, narazılıq görünməyibdir).* Mənə görə qəzəblənib etiraz etmədiyi üçün, digər camaatla birlikdə olan da əzab olunmalıdır"". Mübarək İslam dininin keyfiyyəti mahiyyətcə bu buyuruşda tam mənada açıqlanır.

## Bəndəçiliyin keyfiyyəti yalnız "mən özümü islah edim"də deyil

İslam bayağı dəyərləri qəbul etmir. Və İslam demir ki, özünə qapıl, insanlar nə edirsə sənə dəxli olmasın, yalnız özünü, öz islahını düşün. Bəzən insan düşünür ki, yalnız mən özüm bəndə olub, dua edim, çalışım Allaha bəndəçilik edim. Amma unudur ki, belə bir dinimiz yoxdur, Allaha belə bəndəçilik qəbul olunmur. İslamın mahiyyətində, İslamın bünövrəsində, zatında mütləq və mütləq ictimailik var. Yəni insanın, onun ətrafında baş verənlərə münasibəti olmalıdır. Yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək mütləq olmalıdır. İnsanları yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmə - namaz və oruc qədər vacib olan məsələlərdəndir. Təbii ki, bunun yolu və qaydası var. Əgər insan düşünsə ki, mənə dəxli yoxdur, mən öz həyatımı yaşayıram, namazımı qılıram, orucumu tuturam, ibadətimdəyəm, heç kimlə işim yoxdur, heç kimə pisliyim dəymir, mən öz bəndəliyimi edirəm - belə bəndəliyi Allah Təala keyfiyyətli bəndəlik hesab etmir. Həmin toplumun üzərinə əzab gələndə, o insana da gəlib çıxır. Çünki, Allaha xatir bir dəfə də olsun davranışında, hərəkətində toplumda baş verənlərə münasibət olmur. Dinimiz birmənalı olaraq belə laqeydliyi mənfi dəyərləndirir.

## İslam dini insanların üzərində məsuliyyət yaradan dindir

Mübarək İslam dini bir din olaraq insanların üzərində məsuliyyət yaradır. Necə ki, bizlərin namazla bağlı, orucla bağlı mükəlləfiyyətimiz var, elə də yaxşı işlərə dəvətlə də, pis işlərdən çəkindirmə ilə də bağlı mükəlləfiyyətimiz var. Üzərimizə düşən vəzifələr var. Təbii ki, zahirdə belə görsənir ki, rahatı heç kimin işinə qarışmamaq, öz ibadətin ilə məşğul olmaqdır. Amma İslam dini bir din olaraq yalnız bundan ibarət deyil. İslam dini tövsiyə edir ki, yaxşı işləri özün tanıyasan və insanları onlara dəvət edəsən. Necə ki, zamanında səni yaxşı işlərə dəvət etdilər, sən də onu tanıdıqdan sonra digərlərini dəvət edəsən. Əgər bunu etməsək, Allaha itaətsizlik edən toplumun üzərinə əzab gələndə, biz də onun içərisində əzaba düçar olacağıq.

Hansı toplumda yaxşı işlərə dəvət və pisliklərdən çəkindirmə olmasa, o toplum məhvə doğru gedər. Əgər ailənin içərisində yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə olmasa, həmin ailə məhvə doğru gedər. Dinimizin yanaşmasına görə, möminlər bir-birilərinin güzgüləridir. Gərək güzgü olan möminlər bir-birilərinə eyblərini, çatışmazlıqlarını göstərsin. Amma burada xüsusi olaraq qeyd edilməlidir ki, gərək insan özü ilk öncə yaxşılıqları tanıyan olsun. Bunları tanımaq da özü mühüm məsələdir. Sonra da bunu Allah bəyənən tərzdə çatdırmaq lazımdır. Gərək insanın niyyəti də Allaha xatir olsun. İnsan bunu öz nəfsini təmin etmək üçün etməsin. Həvayi-nəfsin təmini üçün, kiməsə əziyyət vermək üçün etməsin. Bunun bərəkəti olmaz. Əgər əmr-be-məruf və nəhy-az-münkər Allaha xatir niyyəti ilə həyata keçirilsə, bu zaman digər vacibatlar kimi ibadət sayılır.

Hər bir mömin, hər bir iman əhli yaşadığı toplumda, yaşadığı mühitdə yaxşı işlərə dəvət etməli və pis işlərdən çəkindirməlidir. Təbii ki, bunu qaydası ilə, yolları ilə, Allah bəyəndiyi halda etməlidir. Amma, bu, mütləq şəkildə yaşanmalıdır. Göründə ki, bir toplum yaxşılığı unudub, o topluma əmr-be-məruf etmək, həmin yaxşılıqları yada salmaq lazımdır. Göründə ki, bir toplumda mənfilik, eybəcərlik, yanlışlıq, günah, səhvlər adiləşir - gərək onlardan çəkindirmə olsun. Bu, ailəyə də, övladlarla münasibətə də, dostlarla münasibətə də, toplumda davranışlara da aiddir.

**Allahım, bizlərə öncə yaxşılıqları tanımağı, daha sonra insanları yaxşılıqlara dəvət etməyi nəsib et!**

**Allahım, bizlərə pislikləri tanımağı və insanları pis işlərdən çəkindirməyi nəsib et!**

**Allahım, bizləri həyatında bütün vacibatları yaşadanlardan qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 4 (6325) 8 yanvar 2016

# Ekspertlər Neft Fondunun əmlak almasını səhv qərar hesab edir

## Onların fikrincə, bu, çox səhv taktikadır və fondun aktiv vəsaitlərinin daha da azalmasına səbəb olacaq...

**Azərbaycan Dövlət Neft Fondu Milanda İtaliya Ticarət Palatasının binasını alır. Bu barədə "The Wall Street Journal" nəşri məlumat yayıb. Xəbərdə bildirilir ki, Azərbaycan, BƏƏ və Qətərin dövlət investisiya fondları İtaliyanın Milan şəhərində 3 obyektə 380 milyon dollar yatıracaq. Yerli ekspertlər neftin ucuzlaşdığı indiki dövrdə bu cür yatırımları riskli sayırlar. Əksər ekspertlərin sözlərinə görə, bu, çox səhv taktikadır və Neft Fondunun aktiv vəsaitlərinin daha da azalmasına gətirib çıxaracaq.**




Ekspert Qadir İbrahimli məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, Neft Fondunun vəsaitlərinin indiki vaxtda Avropa bazarına yönəldilməsi səhv bir addımdır: "Hazırda ölkə iqtisadiyyatı çox ciddi böhran keçirir. Belə vəziyyətdə yaxşı olardı ki, Neft Fondunun vəsaitləri ölkəni böhrandan çıxarmağa yönəlsin. Yəni daxilə investisiya yatırılmalıdır, nəinki Avropadakı daşınmaz əmlaka. Bu, çox səhv taktikadır və Neft Fondunun aktiv vəsaitlərinin daha da azalmasına gətirib çıxaracaq". **Ekspertin sözlərinə görə, Dövlət Neft Fondu bu cür riskli yatırımlar edərkən ciddi məsləhətləşmə aparmalıdır:** "Neft Fondunun statusuna görə, nizamnaməsinə görə, parlament qarşısında məsuliyyəti yoxdur. Bu qurum birbaşa prezidentə hesabat verir. Yəqin ki, bu cür əməliyyatlar, yatırımlar həyata keçirilərkən dövlət başçısının razılığı olur".

**Ekspert Vüqar Bayramov musavat.com-a açıqlamasında qeyd edib ki, daşınmaz əmlaka yatırım məntiqli addım deyil:** "İndiki zamanda Dövlət Neft Fondu çalışmalıdır ki, daxili ehtiyacların ödənməsini həyata keçirsin. Söhbət ondan gedir ki, ölkədə valyutaya çox ciddi ehtiyac var. Valyutaya ehtiyac olduğu bir dövrdə xaricdə əmlakın alınması arzuolunan deyil. Dövlət Neft Fondu indiki məqamda çalışmalıdır ki, xaricdən əmlak alınması deyil, valyutadan daxili tələblərin ödənməsi üçün istifadə olunsun. Çünki neftin dünya bazarında qiymətinin aşağı düşməsi fonunda və qlobal çətinliklər fonunda əmlak sektoru indiki məqamda hətta inkişaf etmiş ölkələrdə belə riskli investisiya sahəsi sayılır. Digər tərəfdən, əmlakın qısa zamanda satılması mümkün deyil. Bunun üçün daha aşağı qiymətin təklif edilməsinə ehtiyac var. Bu da gəlir əldə edilməsi baxımından çətinliklər yaradır. Ona görə də Dövlət Neft Fondunun vəsaitlərini indiki məqamda daha çox daxildə istifadə etməsi məqsədəuyğundur. Məsələn, vəsaitlərin bir qismini Dövlət Neft Fonfu daxili bazara çıxararaq bir tərəfdən valyutaya olan tələbin ödənməsini təmin edə bilər. Digət tərəfdən, satdıqdan sonra əldə etdiyi manatı əslində sahibkarlıq sektoruna yönəldə bilər. Nəzərə alsaq ki, qlobal maliyyə böhranı baş verən zaman Dövlət Neft Fondu aktivlərinin 2 milyard dollarının Azərbaycana gətirilməsi və banklara kredit formasında verilməsi təklif olunmuşdu, amma o zaman bu, reallaşmadı. Əslində daha məqsədəuyğundur ki, Dövlət Neft Fondu daxili bazardan istifadə etməklə vəsaitləri daxili qurumlara versin. Bu, bir tərəfdən valyuta təklifini artıracaq. Digər tərəfdən, əldə edilən milli valyutada olan vəsaitlər birbaşa istehsala yönəldiyi üçün bu məsələdə gərginlik yaratmayacaq. Çünki bu zaman əldə edilən manatın yenidən dövriyyəyə buraxılması gərgin dollar tələbatını yenidən artıra bilər. Amma söhbət Mərkəzi Bankın vəsaitindən getmir, Dövlət Neft Fondunun vəsaitindən gedir. Həmin vəsait konkret biznes layihələrinin maliyyələşməsi üçün istifadə oluna bilər. Ona görə daha məqsədəuyğunu daxili tələbin ödənməsi və xüsusən daxili bazara valyutanın çıxarılması yolu ilə biznesin aşağı faizli və uzunmüddətli kreditlər formasında maliyyə təminatının gücləndirilməsinə nail olmaqdan ibarət olmalıdır".

**Əksər ekspertlər bu fikirdədir ki, neftin qiymətinin düşdüyü indiki vaxtda Neft Fondu öz vəsaitlərindən səmərəli istifadə etmir. Neft mütəxəssisi İlham Şaban isə azadliq.org-a bildirib ki, indiki vaxtda bu addıma müsbət baxır:** "Çünki neft düşdükcə, daşınmaz əmlakın da qiymətləri düşür. Ona görə də Neft Fondunun indiki vaxtda daşınmaz əmlak alması düzgün addımdır. Ancaq məsələnin başqa tərəfi var. Norveç Neft Fondunda təqribən 800 milyard dollar vəsait var. Bunun haradasa 50 faizi diversifikasiya olunub. Yəni daşınmaz əmlaka, qızıla qoyulub. Azərbaycanda isə bu göstərici cəmi 10 faizdir. Tutaq ki, Azərbaycan Dövlət Neft Fondunun 34 milyard dollar vəsaiti var. Bunun haradasa 3-4 milyardı diversifikasiya edilib".

**Qeyd edək ki, bir müddət əvvəl Dövlət Neft Fondunun 2016-cı ildə proqnozlaşdırdığı gəlir müzakirəyə səbəb olmuşdu. Əksər ekspertlər bunun mümkün olmadığını bildirirlər. Ekspert Natiq Cəfərlinin sözlərinə görə, fondda olan 33 milyard manata yaxın vəsaitdən bir ildə 603 milyon gəlir götürülməsi real deyil. Ekspert Samir Əliyev isə bildirib ki, qızıl və daşınmaz əmlak bazarı 2016-cı ildə də yüksək qazanc vəd etmir:** "Nəzərə alaq ki, neftin ciddi bahalaşması gözlənilmədiyindən aktivlərin nəinki indiki səviyyədə qalması, hətta azalması qaçılmazdır. Ən azı, Mərkəzi Bankın çətin vaxtında Neft Fondunun dəstəyi vacib olacaq. Belə çıxır ki, Neft Fondunun 2016-cı ildə əsas strategiyası gəlirləri artırmaq üçün yüksək riskli və yüksək qazanclı aktivlərə yatırım etmək olacaq. Ya da manatın ucuzlaşmasına ümid edəcək. Əks halda, neftin indiki qiymətləri ilə aktivləri qorumaq və büdcə gəlirlərini icra etmək çətin olacaq".

**Yeri gəlmişkən, Dövlət Neft Fondunun ötən il Moskvadan aldığı daşınmaz əmlakın dəyəri kəskin şəkildə düşüb. O, alınarkən 180 milyon dollardan artıq vəsait xərclənmişdi, indi qiyməti iki dəfədən də çox aşağı düşüb.**

❑ **Röya RƏFİYEVA**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Elan**

**Əzizov Ramil Telman oğlunun adına olan № 0581713, qeydiyyat nömrəsi 1615004246 və torpaq sahəsinin planı və ölçüsünün reyestr nömrəsi 3080013093501 saylı sənədləri itdiyi üçün etibarsız sayılır.**

**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

N 4 (6325) 8 yanvar 2016



## Baş ağrısının əsas səbəbləri

**Baş ağrılarının bir çox səbəbləri var. Onlardan ən əsası stress sayılır. Ailə həyatı və işdəki çətinliklər, iş mühitindəki səs-küy stressə gətirə bilər. Stressdən qaynaqlanan ağrılar başa, boyuna və çiyinlərə təsir edir. Çiyin və boyun əzələlərində əmələ gələn ağrılar birbaşa baş bölgəsinə təsir edir. Bunu önləmək üçün stresli duruma gətirib çıxaran səbəbləri və onlara qarşı nələr edə biləcəyinizi nəzərdən keçirməlisiniz.**

Məsələn, yaxşı bir masaj təsirli ola bilər. Əgər masaj edə bilmirsinizsə, səssiz və xoş mühitdə bir neçə dəqiqə uzanın və heç bir şey düşünməməyə çalışın. Bütün bunlarla yanaşı, çox yüngül bir ağrıkəsici, ya da aspirin qəbul edə bilərsiniz. Baş ağrılarından hərdən bir şikayətlənənlər qidalanmaya diqqət yetirməlidirlər. Az-az tez-tez yemək, allergik qidalardan uzaq dayanmaq görülən sadə tədbirlərdəndir.

Baş ağrısının əsas səbəbləri bədəndəki infeksiyalar, mövsümi problemlər, izdihamlı məkanlar və səs-küy, qan şəkərinin aşağı olması, nizamsız yuxu, allergiya, həddindən artıq kədər, stress, sinir pozğunluğu ola bilər.



## Bəy toyda xuliqanlıq elədi

**İngiltərənin Çesire bölgəsindəki toy mərasimi zamanı 27 yaşlı bəy John Paul Campbell toya gələn qadınlardan birini döyüb. Adı açıqlanmayan qadınla bəyin arasındakı mübahisə şiddətləndiyi zaman John onu döyməyə başlayıb. Mübahisənin daha da böyüməməsi üçün gəlinin yaxın rəfiqəsi bəyi sakitləşdirməyə çalışıb. Lakin bəyin digər qadına atdığı yumruq gəlinin rəfiqəsinin üzünə dəyib. Aldığı zərbədən Samanta Devar adlı qadının almacıq sümüyü qırılıb. 26 yaşlı gənc qız bəyi məhkəməyə verib. O, məhkəmədə gəlinlə uşaqlıqdan bəri yaxın dost olduqlarını, amma toydan sonra heç görüşmədiklərini deyib.**

# Şahzadə bağçaya gedir

**Kembric hersoqinyası Keyt Middeltonun və Kembric hersoqu şahzadə Uilyamın iki yaşlı oğlu bağçaya gedir. Şahzadə ana oğlunun şəkillərini çəkərək sosial şəbəkədə paylaşıb. Balaca şahzadə Corc ilk şəkildə qəmli görünsə də, 2-ci fotoda oğlan şən və qayğısız olub. Bağçanın ilk günü bir neçə saat çəkib.**



Gənc ailə oğlu üçün bahalı deyil, sadə bağça seçib. Onlar bağçaya bir gün üçün 33 funt ödəyirlər (75 AZN). Londonda bağçanın 1 günlük qiyməti 80 funta (182 AZN) qədər ola bilir. Ailənin ikinci övladı Yelizaveta Diana Şarlotta isə 2015-ci il mayın 2-də dünyaya gəlib. Şarlotta, babası, 67 yaşlı şahzadə Çarlz, 33 yaşlı atası şahzadə Uilyam, 28 aylıq qardaşı şahzadə Corcdan sonra Birləşmiş Krallıq taxt-tacının 4-cü varisidir.

# Hamilə qadını avtobusdan yerə atdılar



**Rusiyada hamilə qadın avtobusdan düşürülüb. Buna səbəb isə onun övladlarının nəqliyyat vasitəsində səs-küy salması olub. İctimai nəqliyyata uşaqları ilə minən hamilə qadın və digər sərnişin arasında mübahisə düşüb. Mübahisə böyüyəndə uşaqlar qorxaraq ağlamağa başlayıblar. Bu vəziyyət isə başqa sərnişinləri narahat edib. Ana övladlarının müdafiəsi üçün digər sərnişinlərlə mübahisə edib. Bundan sonra isə əsl biabırçılıq yaşanıb. Bir kişi daha səs-küyə dözə bilməyəcəyini deyib. O, avtobusu saxladıb və hamilə qadını uşaqları ilə birlikdə avtobusdan çıxarıb.**

İlk olaraq qadın övladlarını düşürüb. Kişi sərnişin hamilə qadını qucağına götürərək yerə düşürüb. Qadın təkrar avtobusa minmək istəyəndə isə onu sinəsindən itələyərək yerə yıxıb. Sərnişinin belə vicdansız hərəkəti başqa bir sərnişin tərəfindən anbaan kameraya alınıb.

# Kartof hansı daxili orqanı məhv edir?

**İngiltərədə aparılan araşdırmalar kartofun qaraciyərə zərərli olduğunu ortaya çıxarıb. Publika.az xəbər verir ki, araşdırmanın nəticələri karbohidratlarla zəngin bütün qidaların, o cümlədən kartofun qaraciyərə ən az spirtli içkilər qədər zərər verdiyini göstərib. Araşdırmanı aparan professorlar həyatı boyu spirtli içki içməyənlərin məhz karbohidratlara görə qaraciyər çatışmazlığı ilə üzləşə biləcəklərini vurğulayıb.**



Gündəlik olaraq istifadə etdiyimiz kartof və çörək kimi yüksək miqdarda karbohidrat ehtiva edən qidalar qaraciyərə zərər yetirməklə yanaşı, ürək və damar sistemi üçün də təhlükəli hesab edilir. Belə qidalar həmçinin şəkər xəstəliyinə yaxalanmaq riskini artırır.




## Lotereyada 1 milyon avro uddu

**Estoniya sakini beynəlxalq "Viking Lotto" lotereyasında əsas 6 nömrəni tapıb və ölkə tarixində rekord məbləğ olan 1 milyon avroya yiyələnib. Milli.az "Postimees"ə istinadən bildirir ki, "Eesti Loto" dövlət şirkətindən verilən məlumata görə, lotereya bileti internet vasitəsilə alınıb. 804 884,9 avroluq mükafat fondu Estoniya və Norveçdən olan iki şəxs arasında bölüşdürülməli idi. Lakin Estoniyada 2013-cü ilin iyun ayından qüvvədə olan qanuna görə, cek-potu udmuş şəxs mükafat fondunun məbləğindən asılı olmayaraq 1 milyon avro alır. Qanuna uyğun olaraq qalibin adı açıqlanmır. Sonuncu rekord 2013-cü ilin baharında qeydə alınmışdı. Onda qalibə 768700 avro ödənmişdi.**




**QOÇ - Şəxsi işlərinizdə önəmli rol oynaya biləcək insanları arayıb-axtarın. Əks halda, mövqeləriniz zəifləyəcək. Nahar ərəfəsində mübahisələrdən yayının ki, enerjiniz azalmasın.**

**BUĞA - Günün ilk yarısında ovqatınızı qorumağa çalışın. Bunu bacarsanız, təxminən saat 14-dən sonra vəziyyəti xeyrinizə dəyişə biləcəksiniz. Aldığınız işgüzar təkliflərə biganə yanaşmayın.**

**ƏKİZLƏR - Yersiz risklərə lüzum yoxdur. Əks halda, ciddi yanlışlığa yol verə, nəticədə isə gözdən düşə bilərsiniz. Ümumiyyətlə, bu gün təkbaşına hansısa işə girişməyiniz yolverilməzdir.**

**XƏRÇƏNG - Cılız düşüncəli insanların fikirlərini ciddiyə almayın. Yalnız öz təcrübə və potensialınıza uyğun addım atın. Maliyyə problemlərinizin həllini nahardan sonraya saxlayın.**

**ŞİR - Yalnız perspektivlərinizlə bağlı sövdələşmələrdə iştirakınız uğurlu ola bilər. Konkret işlərə isə girişməməlisiniz. Ulduzlar pul məsələlərində ehtiyatlı olmağı məsləhət görür.**

**QIZ - Başqalarının işinə qarışmasanız, ixtiyarınızda olan bu təqvimdən razı qalacaqsınız. Neçə vaxtdan bəri planlaşdırdığınız işləri nəhayət ki, reallığa yaxınlaşdıra biləcəksiniz.**

**TƏRƏZİ - Ola bilsin ki, yeni iş təklifləri alasınız. Əgər belə bir şans yaransa imtina etməyin. Göy qübbəsi sağlıq durumunuzda xırda narahatçılıqların olacağını da istisna etmir.**

**ƏQRƏB - Böyük işlər astanasındasınız. Artıq üzüntülü həyatınıza əlvida deməyə hazırlaşırsınız. Deməli, xırdaçılıqları bir kənara atıb daha qlobal, daha imanlı çalışmalısınız.**

**OXATAN - Fəaliyyət zəminində öz məsuliyyətinizi hiss edin. Xüsusən də rəhbərliyin əsəbini qabarda bilən işlər görməyin. Nahardan sonra şəxsi büdcənizdə müsbət dəyişikliklər də mümkündür.**

**OĞLAQ - İştirakçısı olduğunuz hər bir prosesi yaxşı-yaxşı analiz edin. Bu, sonrakı vəziyyətinizə də təsir göstərəcək. Siyasi mübahisələrə, şit əyləncələrə və uzaq səfərlərə "yox" deyin.**

**SUTÖKƏN - Əsas gücünüzü nitq mədəniyyətinə yönəldin. Elə davranın ki, hər sözünüz, hər ifadəniz müsahiblərinizə yalnız xoş təsir bağışlasın. Sevgi barədə isə Füzuli qədər söz sərrafı olun.**

**BALIQLAR - Bütün enerjinizi işgüzar müstəviyə yönəldin. Çünki bu barədə həftənin ən düşərli gününü yaşayacaqsınız. Təcrübəli adamlardan məsləhət alın ki, səhvlər buraxmayasınız.**

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Gec yemək yaddaşı korlayır



**Amerikanın Kaliforniya Universiteti alimlərinin apardığı bir araşdırma gecə gec saatlarında yemək yeməyin yaddaşa və qavrama istedadına zərər verdiyini ortaya çıxarıb. Siçanlar üzərində gerçəkləşən testlərin heyvanların zehninə zərər verəcək ciddi yaddaş və idrak problemlərinə yol açdığı bəlli olub. Mütəxəssislər eyni nəticələrin insanlar üzərində də ola biləcəyini bildirirlər. Gec saatlarda, xüsusən də yatmazdan əvvəl yemək yeyilməməsi tövsiyə olunmur.**

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.